Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 270 (7997) CÜMƏ, 30 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Avropa İttifaqı Azərbaycanın əsas investoru və ticarət tərəfdaşıdır

Son illərdə demokratiya və tərəqqi yolunda inamla irəliləyən Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı Avratlantik məkana inteqrasiya kontekstində inkişaf etməkdədir. Bu qurumla münasibətlərin sağlam təməl əsasında inkişafının nəticəsidir ki, ölkəmiz hazırda bu təşkilatın bir çox proqramlarında fəal iştirak edir. Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşı kimi qəbul olunur.

Prezident İlham Əliyev tərəfindən yürüdülən müstəqil xarici siyasət Avropa İttifaqı ölkələri ilə bərabərhüquqlu, yaxın təmaslara söykənən harmonik münasibətlərin qurulmasına əsaslanır. Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşən Azərbaycanın geostrateji mövqeyi bu quruma üzv dövlətlərin də ölkəmizlə siyasi və iqtisadi münasibətləri inkişaf etdirməyə marağını daha da artırıb.

## Səmərəli əməkdaşlıq, "Tərəfdaşlıq prioritetləri"

Öncə onu vurğulayaq ki, Avropa İttifaqı ilə qarşılıqlı hörmət və maraq prinsipləri üzərində davamlı münasibətlərin qurulması və inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritetlərindəndir.

Respublikamız hələ 1996-cı ildən Aİ ilə tərəfdaşlıq və əməkdaşlıq sazişi, daha sonra 2004-cü ildən Avropa qonşuluq siyasəti və nəhayət, 2009-cu ildən Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində əməkdaşlıq edir. Bu ulin iyul aynın 11-də isə Brüsseldə Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə tərəflər arasında paraflanan "Tərəfdaşlıq prioritetləri"nin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını müəyyənləşdirdi.

"Tərəfdaşlıq prioritetləri" 2018-2020-ci illəri əhatə edir və bərabərhüquqlu, qarşılıqlı xarakter daşıdığını özündə əks etdirir. Bu sənəd Avropa İttifaqı və Azərbaycan arasında ikitərəfli gündəliyə yeni təkan vermiş oldu.

Bu gün Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Avropa İttifaqı ilə ticarət dövriyyəsinin həcminin ümumi ticarətdəki payı 50 faizdir. Azərbaycan iqtisadiyyatına investisiya yatıranlar arasında Avropa İttifaqı ölkələri üstünlük təşkil edir.

## 25 milyard dollara yaxın investisiya

Müstəqillik dövründə Avropa İttifaqından Azərbaycan iqtisadiyyatına 25 milyard dollara yaxın investisiya yatırılıb.

Azərbaycanda 1500-dən çox Avropa İttifaqı ölkələrinin şirkəti fəaliyyət göstərir. Avropa İttifaqının bir sıra ölkələri (Almaniya, Fransa, Avstriya, İtaliya, Yunanıstan, Polşa və s.) ilə Azərbaycan arasında ticarət palataları fəaliyyətdədir.

Azərbaycan Avropanın bir çox ölkələri ilə ikitərəfli iqtisadi münasibətlərini möhkəmləndirməkdə davam edir. Tez-tez keçirilən biznes forumları, biznes dialoqları da ticarət tərəfdaşlığının şaxələnməsinə real zəmin yaradır.

Noyabrın 28-də Berlində təşkil edilən I Almaniya-Azərbaycan Biznes Dialoqu da bu məqsədlərə xidmət edir. Yüzdən artıq Azərbaycan və alman şirkətinin qatıldığı tədbirdə vurğulanıb ki, iki ölkə arasında iqtisadi-ticari münasibətlər son illərdə sürətlə genişlənir. Tədbirdə Azərbaycanın Almaniyanın Cənubi Qafqazda ən mühüm iqtisadi və ticarət tərəfdaşı olduğu bir daha qeyd edilib.

*Ardı 2-ci səh.*

## Prezident İlham Əliyev Tahir Salahovun fəaliyyətini yüksək qiymətləndirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Azərbaycanın və SSRİ-nin xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahova telefonla zəng edib.

Dövlət başçısı müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Tahir Salahovun fəaliyyətini yüksək qiymətləndirib, onu 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunması münasibətilə təbrik edib.

Tahir Salahov telefon zənginə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür edib və onu Azərbaycanın yüksək dövlət mükafatına - 1-ci dərəcəli "Əmək" ordeninə layiq gördüyünə görə dərin minnətdarlığını bildirib.

Dövlət başçısı Tahir Salahova möhkəm cansağlığı və fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

***Prezidentin Mətbuat Xidməti***

## *Vladimir Putin Tahir Salahova:* "Siz nadir istedad sahibisiniz"

Rusiya Prezidenti Vladimir Putin SSRİ-nin və Azərbaycanın xalq rəssamı Tahir Salahovu 90 illik yubileyi münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Kremlin saytında yerləşdirilmiş məktubda deyilir: "Siz nadir istedad sahibi, genişmiqyaslı yaradıcılıq planları quran, sənətinə tələbat duyulan rəssam və pedaqoq kimi tanınmısınız, parlaq istedadlı şagirdlərinizin və davamçılarınızın bütöv bir nəslini tərbiyə etmisiniz. Sizin çoxplanlı, həmişə maraqlı sərgi və bərpa layihələrinin reallaşdırılmasına böyük töhfəniz, incəsənətə sədaqətiniz, əlbəttə, ən dərin hörmətə və ehtirama layiqdir".

Prezident Vladimir Putin xalq rəssamı Tahir Salahova cansağlığı diləyib, ən xoş arzularını bildirib.

## Zaqatala rayonunun Zaqatala-Aşağı Tala-Üçüncü Tala-Dağlı-Muğanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On yeddi min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Zaqatala-Aşağı Tala-Üçüncü Tala-Dağlı-Muğanlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 11,0 (on bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2018-ci il*



## Neft ölkəsinin qeyri-neft məhsullarına da tələbat artır

Xüsusən son illər qeyri-neft sektorunun inkişafı ilə bağlı görülən tədbirlərə və onların real nəticələrinə baxmayaraq, Azərbaycan neft-qaz ölkəsi olaraq qalır və yəqin ki, bir müddət belə də davam edəcək. Bu da təsadüfi deyil. Hələ neçə yüz il əvvəl neftin ilk dəfə sənaye üsulu ilə çıxarılması Azərbaycanda həyata keçirilib. Bu məhsulun boru vasitəsilə uzaq məsafəyə nəql edilməsində də ön yerlərdən birini tuturuq. Bir sözlə, neftin Azərbaycan iqtisadiyyatının əsasını təşkil etməsinin tarixi qədim və zəngindir.

Amma neft təkcə Azərbaycanda yox, bütün dünya iqtisadiyyatında aparıcı rol oynayır. Buna görə də onun qiymətinin bahalaşması və ya ucuzlaşması istənilən ölkənin iqtisadiyyatına təsirsiz ötüşmür. Bahalaşması istehsalçılara gəlir gətirsə də, idxalçıların vəziyyətini çətinləşdirir. Nəticədə qlobal iqtisadiyyatda balans pozulur, qeyri-müəyyənlik yaranır. Elə bu səbəbdən uzaqgörən istehsalçı ölkələr neft-qaz asılılığından xilas olmaq üçün ardıcıl tədbirlər görürlər.

Ölkəmizdə də həyata keçirilən iqtisadi islahatların əsas məqsədi neftdən asılılığı minimuma endirməkdir. Bunun üçün isə ilk növbədə, təbii ki, qeyri-neft sektoru inkişaf etdirilməlidir.

*Ardı 3-cü səh.*

## Kümçülüyün yeni inkişaf dövrü başlayır



*Azərbaycan özünü ipəkqurdu toxumu ilə tam təmin edə biləcək*

Son 3 ildə bir sıra ənənəvi kənd təsərrüfatı sahələri ilə yanaşı baramaçılığa da təkan verilib. Bunun da nəticəsində müvafiq istiqamətdə əhəmiyyətli inkişafa şərait yaranıb. İlk növbədə insanlar üçün yadlaşmaqda olan gəlirli bir sahə yenidən dirçəlib.

İkincisi, baramaçılığın yem bazasının formalaşdırılması ilə paralel, həm də barama istehsalında dinamik artıma nail olunub. Bu da, öz növbəsində, tarixi ənənələri ilə tanınan Şəki İpək Kombinatının yenidən normal fəaliyyət göstərməsini stimullaşdırıb. Sadaladıqlarımız arasında ən vaciblərindən biri də bu ilin oktyabr ayında Prezident İlham Əliyevin Qax şəhərinə səfəri çərçivəsində tamamilə yenidən qurulan Qax Damazlıq-İpəkçilik Stansiyasının açılışını etməsidir.

*Ardı 6-cı səh.*

## Ölkə fermerləri birləşir

### Bu dəfə kənd təsərrüfatı kooperativlərində

**Nəhayət ki, aqrar sektorda aparılan islahatların sırasında hamının çoxdan gözlədiyi vacib yeniliyin baş tutmasının şahidi olduq. Söhbət aqrar kooperativlərdən gedir. Ümumiyyətlə, kooperativ hərəkatı dünyanın bir çox ölkələrində geniş və həm də çoxdan yayılmış fəaliyyət növüdür. Kənd təsərrüfatı kooperativlərinin yaranma tarixi XIX əsrin əvvəllərinə gedib çıxır. Bu uzun zaman kəsimində davamlı sınaqlardan keçərək inkişaf etmiş kooperativlər mükəmməlləşərək bugünkü müasir simasını almışdır.**



*Bax: səh. 5*

# Prezident İlham Əliyev: “Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır”

## “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 72-ci kitabı çapdan çıxıb




“Bir daha demək istəyirəm, Azərbaycan o ölkələrdəndir ki, öz sözünü deyir, öz siyasətini aparır. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Əgər Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləməsə, biz müstəqil siyasət apara bilmərik. Bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər. Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur”.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 72-ci kitabında yer alan bu fikirlər dövlətimizin başçısının 2016-cı il fevralın 17-də Gəncə şəhərində “İmamzadə” dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanışlıq zamanı söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 72-ci kitabındakı materiallar 2015-ci ilin dekabrından 2016-cı ilin fevralınadək olan dövrü əhatə edir. Həmin dövrdə Azərbaycanın yüksək səviyyədə təmsil olunduğu mühüm hadisələrdən biri Davos Forumu olub. Prezident İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfər edib. Kitaba Azərbaycan Prezidentinin forum çərçivəsində bir sıra ölkələrin dövlət və hökumət başçıları, nüfuzlu şirkətlərin rəhbərləri ilə görüşlərinə, forumun “Yeni enerji tarazlığı” mövzusunda sessiyasında iştirakına dair materiallar, habelə Prezident İlham Əliyevin forumun rəsmi saytında yerləşdirilmiş “Azərbaycan iqtisadiyyatının gələcəyi” adlı geniş məqaləsi daxil edilib.

Nəşrdə Azərbaycan Prezidentinin Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına rəsmi səfərləri, Böyük Britaniyaya səfəri, Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına işgüzar səfəri zamanı keçirdiyi görüşlərə, habelə ölkəmizə rəsmi səfərə gələn Əfqanıstan İslam Respublikasının Prezidenti ilə görüşünə, imzalanan sənədlərə, mətbuata bəyanatlara dair materiallar toplanıb.

Bu kitabda Azərbaycan Prezidentinin Türkiyə, ABŞ, Pakistan, Almaniya, Bolqarıstan, Yunanıstan və digər dövlətlərin, İqtisadi Əməkdaşlıq Təşkilatı, BMT, NATO, Avropa İttifaqının ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsini əks etdirən materiallarla, İran İslam Respublikasının Radio-Televiziya Şirkətinə müsahibəsinin mətni ilə də tanış olmaq mümkündür.

Çoxcildliyin 72-ci kitabında Prezident İlham Əliyevin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 80 illik yubileyi münasibətilə bu institutun əməkdaşlarına, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına, Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına, SSRİ xalq artisti Murad Kajlayevin 85, xalq şairi Nəriman Həsənzadənin 85 illik yubileyləri münasibətilə təbriklərinin mətnləri və digər məktubları da yer alıb.

Kitabda, həmçinin Prezident İlham Əliyevin 2015-ci ilin idman yekunlarına həsr olunan mərasimdə, Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə, “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda, Azərbaycan Gənclərinin I Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşündə söylədiyi nitqlərin mətnləri toplanıb.

Oxucu bu cilddə Prezident İlham Əliyevin Tovuz rayonuna, Gəncə şəhərinə səfərləri zamanı nəqliyyat, iqtisadi və sosial infrastruktur, habelə mədəniyyət obyektlərinin, Bakıda Gözdən əlillər üçün yeni yaşayış binasının, “Baytarlıq şəhərciyi”nin, Zirə Mədəniyyət Mərkəzinin və Eko-Parkın açılış mərasimlərində iştirakına dair materiallarla tanış ola bilər.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri də verilib.

“Azərnəşr” tərəfindən buraxılan 72-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin materiallarından istifadə olunub.

# Baş nazir Novruz Məmmədov BMT Baş katibinin müavini ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov noyabrın 29-da ölkəmizdə səfərdə olan BMT Baş katibinin müavini, təşkilatın Avropa İqtisadi Komissiyasının icraçı katibi Olqa Alqayerova ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə BMT-nin Avropa İqtisadi Komissiyası arasında əməkdaşlığın perspektivləri müzakirə edilib.

Azərbaycan ilə BMT və onun strukturları arasında əlaqələrin uğurla inkişaf etdiyini deyən Novruz Məmmədov qeyd edib ki, respublikamız Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin sentyabrında keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti istiqamətləri müəyyənləşdirir. Baş nazir BMT Baş katibinin müavininin ölkəmizə səfərinin bu əməkdaşlığa öz töhfəsini verəcəyinə əmin olduğunu deyib.

Azərbaycan Hökuməti ilə BMT-nin Avropa İqtisadi Komissiyası arasında Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı əməkdaşlığa dair Birgə Bəyanatın imzalanmasını dəyərləndirən Baş nazir diqqətə çatdırıb ki, ölkəmiz ötən illər ərzində Minilliyin İnkişaf Məqsədləri üzrə bir çox hədəfləri, xüsusilə insanların sağlamlığının qorunması, ətraf mühitin yaxşılaşdırılması, yoxsulluğun aradan qaldırılması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyinin təşviq və təmin olunması üzrə mühüm nailiyyətlər əldə edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə qonağa ətraflı məlumat verən Baş nazir BMT-nin münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini təəssüflə qeyd edib.

Azərbaycanın və onun yerləşdiyi regionun əhəmiyyətini vurğulayan BMT Baş katibinin müavini Olqa Alqayerova ölkəmizə səfərindən məmnun olduğunu bildirib. Bakıda keçirdiyi görüşlərdə Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi ilə əlaqədar bir sıra məsələlərin müzakirə olunduğunu qeyd edən qonaq bunun nəticəsi kimi Birgə Bəyanatın imzalandığını diqqətə çatdırıb. Rəhbərlik etdiyi qurumun su, ekologiya, energetika, nəqliyyat, statistika, ticarətin asanlaşdırılması və digər məsələlərlə məşğul olduğunu bildirən Olqa Alqayerova Azərbaycan ilə əməkdaşlıqdan məmnun olduğunu deyib. O, Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün reallaşdırılan layihələrə birgə dəstək verməyin vacibliyini bildirib.

Avropa İqtisadi Komissiyasının Azərbaycan ilə regional formatda da işlədiyini söyləyən Olqa Alqayerova bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Azərbaycan Hökuməti ilə BMT-nin Avropa İqtisadi Komissiyası arasında Birgə Bəyanat imzalanıb

Noyabrın 29-da Nazirlər Kabinetində Azərbaycan Hökuməti ilə BMT-nin Avropa İqtisadi Komissiyası arasında Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı əməkdaşlığa dair Birgə Bəyanat imzalanıb.



AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov və ölkəmizdə səfərdə olan BMT Baş katibinin müavini, təşkilatın Avropa İqtisadi Komissiyasının icraçı katibi Olqa Alqayerova imzalayıblar.

Azərbaycanla BMT arasında əməkdaşlığın müzakirə edildiyi görüşdə Baş nazirin müavini bir sıra sahələrdə uğurlu layihələrin reallaşdırıldığını bildirib, həmin layihələrin bir çoxunun dayanıqlı inkişafla bağlı olduğunu vurğulayıb.

BMT Baş katibinin müavini Olqa Alqayerova Azərbaycanla əməkdaşlığın məmnunluq doğurduğunu qeyd edib. Qonaq Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün reallaşdırılan layihələrə dəstək verməyə hazır olduqlarını deyib.

# Azərbaycan və Türkiyə parlamentləri arasında münasibətlər yüksək səviyyədədir



Noyabrın 29-da Milli Məclis Sədrinin müavini Bahar Muradova ölkəmizdə səfərdə olan Türk Dünyası Qadın Platformasının (TÜRKAP) nümayəndələri ilə görüşüb.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən Bahar Muradova Türkiyə ilə bütün sahələrdə münasibətlərin Azərbaycan üçün böyük önəm kəsb etdiyini bildirib. Ulu öndər Heydər Əliyevin “bir millət - iki dövlət” kəlamını xatırladan Bahar Muradova Türkiyə və Azərbaycan parlamentləri arasında münasibətlərin yüksək səviyyədə olduğunu, qardaş ölkələrimiz arasındakı münasibətlərin bütün dünyaya nümunə göstərildiyini vurğulayıb.

Bahar Muradova Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Şimali Kiprin təşəbbüsü və təşkilatçılığı ilə yaranan bu təşkilatın çox müqəddəs amallar uğrunda fəaliyyət göstərəcəyindən məmnun olduğunu bildirib. Təşkilatın qarşısına qoyduğu hədəflərin ortaq siyasi-mədəni tədbirlərin təşkili, qadınların fəaliyyətinin sərhədlərinin genişləndirilməsi, türk dünyası qadınları arasında dialoq və tarixi qardaşlıq bağlarının gücləndirilməsi olduğunu qeyd edib.

TURKAP nümayəndə heyətinin rəhbəri, Türkiyə Böyük Millət Məclisinin deputatı Mihrimah Belma Satır Azərbaycanda özlərini doğma evlərində olduğu kimi hiss etdiklərini diqqətə çatdırıb. Bu ilin sentyabrında İstanbulda təsis olunan təşkilatın gələcək fəaliyyətindən, qarşıya qoyulan hədəflərə doğru irəliləmək yolunda atılan addımlardan danışıb. O bildirib ki, bu ilin dekabrında İstanbulda təşkilatın üzvü olan 200 qadının iştirakı ilə qurumun beynəlxalq forumu keçiriləcək.

Görüşdə iştirak edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, deputatlar Sahibə Qafarova, Sevinc Fətəliyeva, Kamilə Əliyeva, Jalə Əliyeva, Şimali Kipr parlamentinin deputatı Rəsmiyyə Çanaltay, Hesablama Palatasının auditoru Mehriban Alışanova, TURKAP təşkilatının qurucusu Zait Nahmatov, filoloqalim Şərəf Cəlilli və başqaları təşkilatın fəaliyyətinin türk dünyası üçün çox əhəmiyyətli olacağını bildirib, nəzərdə tutulan layihələrin qadınlarımızın və tərəqqipərvər cəmiyyətimizin inkişafına xidmət edəcəyini qeyd ediblər.

# Olqa ALQAYEROVA: “Azərbaycan BMT orqanları sistemində təşəbbüskar mövqeyi ilə seçilir”

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş katibinin müavini, təşkilatın Avropa İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Olqa Alqayerova ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə UNECE arasında təşəkkül tapmış ənənəvi əlaqələrdən məmnunluq ifadə olunub. Olqa Alqayerova səfər çərçivəsində təmsil etdiyi qurum ilə Azərbaycan Hökuməti arasında Birgə Bəyanatın imzalanmasını təqdirəlayiq hal kimi göstərərək, Azərbaycanın, ümumiyyətlə BMT orqanları sistemində, o cümlədən UNECE-də təşəbbüskar mövqeyi ilə seçildiyini, qurumun fəaliyyətinə mühüm töhfə verdiyini yüksək dəyərləndirib.

Nazir Elmar Məmmədyarov Avropada iqtisadi inkişaf meyillərinin izlənilməsi və onun təmin edilməsi məqsədilə UNECE çərçivəsində intensiv siyasi dialoq və səmərəli təcrübə mübadiləsi mexanizmlərinin vacib rol oynadığını qeyd edib. Bu xüsusda o, ölkəmizdə aparılan islahatların və həyata keçirilən inkişaf proqramlarının nəticəsində sabit və dayanıqlı inkişafın təmin edildiyini vurğulayıb.

Ermənistan-Azərbaycan münaqişəsinə toxunan nazir Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz mövcudluğunun, o cümlədən Sərsəng su anbarının işğal altında saxlanılmasının regional sülh və təhlükəsizlik, habelə ekoloji vəziyyət üçün ciddi təhdid olmaqla bərabər, Cənubi Qafqaz bölgəsi və daha geniş Avropa məkanında hərtərəfli əməkdaşlığa əngəl törətdiyini qeyd edib.

Həmsöhbətlər Azərbaycanla UNECE arasında ənənəvi əlaqələrin gələcəkdə də uğurla inkişaf edəcəyindən əminlik ifadə edib, ölkəmizin qlobal iqtisadiyyat sistemində tutduğu yeri, habelə qarşılıqlı maraq doğuran digər məqamlar üzrə fikir mübadiləsi aparıblar.

# Avropa İttifaqı Azərbaycanın əsas investoru və ticarət tərəfdaşıdır

*Əvvəli 1-ci səh.*

İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov bildirib ki, Almaniyanın Cənubi Qafqaz ölkələri ilə ticarətində Azərbaycanın payı 70 faizdən çoxdur. Bu ilin 9 ayında ticarət dövriyyəsi 80 faiz artıb. Ölkəmizdə müxtəlif sektorlarda Almaniya sərmayəli 206 şirkətin qeydiyyatdan keçdiyini bildirən R.Məmmədovun sözlərinə görə, Almaniya tərəfindən Azərbaycana 560 milyon dollar sərmayə yatırılıb. Bunun da 96 faizi qeyri-neft sektorunun payına düşür.

Nazir müavini iki ölkələr arasında energetika, kənd təsərrüfatı, nəqliyyat, təhsil, əczaçılıq, kimya və maşınqayırma sahələrində əməkdaşlıq üçün imkanların olduğunu vurğulayıb.

## Quruma üzv olan 24 ölkə ilə ikiqat vergitutma aradan qaldırılıb

Bununla yanaşı, Azərbaycan Avropa İttifaqının əsas enerji partnyorlarındandır. Bakıda rəsmi açılışı olmuş “Cənub qaz dəhlizi”, Türkiyədə tamamlanan TANAP layihəsi enerji sahəsində strateji əməkdaşlığın gözəl nümunələrindəndir. 4 siqmentdən ibarət olan bu layihə Azərbaycan qazını birbaşa Avropaya çatdıracaq.

Avropa İttifaqının 24 üzv ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 17 üzv ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması sazişləri, 9 üzv ölkə ilə Strateji Tərəfdaşlıq bəyannamələri imzalanıb, 16 üzv ölkə ilə 17 Hökumətlərarası Komissiya və İşçi Qrupu, İdarəetmə Komitəsi fəaliyyət göstərir.

Azərbaycan Avropa İttifaqı ilə Tvinninq, TAİEX, SİGMA, Texniki Dəstək, Büdcəyə Dəstək alətləri çərçivəsində də əməkdaşlıq edir və bu alətlər çərçivəsində indiyədək Azərbaycana 600 mln. avroya yaxın dəstək göstərilib.

## Azərbaycan etibarlı strateji tərəfdaşdır

Xatırladaq ki, bu il Prezident İlham Əliyev Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə keçirdiyi görüşdə qeyd edib ki, Azərbaycan ticarətinin demək olar, 50 faizini quruma üzv ölkələrlə olan ticarət təşkil edir.

Azərbaycan Avropa İttifaqına üzv olan əksər ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri qəbul edib. Bu, o deməkdir ki, Avropa İttifaqına üzv ölkələrin üçdəbiri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bu, gənc müstəqil ölkə üçün çox vacibdir və əlbəttə ki, Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək razılaşma strateji əlaqələrin gücləndirilməsində daha bir mühüm mərhələ hesab edilir.

Ümumiyyətlə, son 15 ildə Azərbaycan iqtisadiyyatına 250 milyard dollara yaxın investisiya yatırılıb. Ölkədə yaradılan əlverişli biznes mühiti, investorlara göstərilən diqqət və qayğı xarici investorların, xüsusən də Avropa İttifaqına üzv olan dövlətlərin investorlarının Azərbaycana diqqətini daha da artırır. Hazırda Avropa Azərbaycanın əsas investoru və ticarət tərəfdaşıdır.

Əminliklə söyləyə bilərik ki, Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq yeni sazişdən sonra siyasi əlaqələrlə yanaşı iqtisadi münasibətlərin də yeni inkişaf istiqamətləri müəyyənləşəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***



# GUAM ölkələri beynəlxalq təşkilatlarda birgə fəaliyyəti gücləndirəcək

GUAM ölkələri beynəlxalq təşkilatlarda birgə fəaliyyəti gücləndirəcək. AZƏRTAC xəbər verir ki, bu fikirlər Ukraynanın paytaxtı Kiyevdə keçirilən GUAM-ın Milli Əlaqələndiricilər Şurasının 48-ci iclasında müzakirələr zamanı səsləndirilib.

İclasda Azərbaycanı xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev təmsil edib.

Müzakirələr zamanı vurğulanıb ki, GUAM əməkdaşlıq və tərəfdaşlıq etdiyi ölkələrlə, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələlərini daha da səmərəli etməlidir.

İclasda digər GUAM ölkələrinin parlamentləri arasında əməkdaşlıq məsələləri də müzakirə edilib.

# Baş prokuror Tərtər rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 29-da baş prokuror Zakir Qaralov Tərtər Rayon Prokurorluğunun inzibati binasında Tərtər, İmişli, Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Laçın və Xocavənd rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda baş prokuror bölgədə yaşayan 26 vətəndaşın müraciətini dinləyib. Qəbulda qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

# Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının 25-ci ildönümü qeyd olunub

Noyabrın 29-da Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 26-cı, YAP Gəncə şəhər təşkilatının təsis olunmasının 25-ci ildönümü münasibətilə Gəncədə konfrans keçirilib.



AZƏRTAC YAP-ın saytına istinadla xəbər verir ki, tədbirdə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Milli Məclisin deputatları Rauf Əliyev, Musa Quliyev, Xanlar Fətiyev, Pərvin Kərimzadə və digərləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə partiyanın yaradıcısı, ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov konfransda çıxış edərək YAP-ın yaradılmasının 26-cı, YAP Gəncə şəhər təşkilatının təsis olunmasının 25-ci ildönümü münasibətilə partiya üzvlərini təbrik edib. O qeyd edib ki, ölkənin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında, bütün sahələrdə qazanılan tərəqqidə xüsusi rola malik olan Yeni Azərbaycan Partiyası ulu öndər Heydər Əliyevin ideyaları ilə yaşayır və inkişaf edir.

YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıb. YAP-ın xalqımız və Azərbaycan dövlətçiliyi qarşısında böyük xidmətlərindən bəhs edən Siyavuş Novruzov bildirib ki, partiya yarandığı gündən xalqa, dövlətə xidməti fəaliyyətinin əsas xətti kimi qəbul edib. Ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın Azərbaycanın ictimai-siyasi həyatına daxil olması ilə Azərbaycanın tarixində yeni dövr başlayıb.

Milli Məclisin deputatları Musa Quliyev, Pərvin Kərimzadə, YAP Gəncə şəhər təşkilatinin sədr müavini, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin akademik katibi Fuad Əliyev, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) rektoru professor İbrahim Cəfərov çıxışlarında partiyanın keçdiyi şərəfli inkişaf yoluna nəzər salıblar. Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında YAP-ın mühüm rolundan və xidmətlərindən söz açan natiqlər Prezident İlham Əliyevin rəhbərliyi ilə ulu öndər Heydər Əliyevin dövlətçilik strategiyasının uğurla reallaşdırıldığını və dövrün tələbləri baxımından inkişaf etdirilərək bütün sahələrdə möhtəşəm nailiyyətlərin əldə olunduğunu vurğulayıblar.

YAP Gəncə şəhər təşkilatının sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev çıxışında Prezident İlham Əliyevin sədri olduğu YAP-ın bu gün qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında yaxından iştirak etmək kimi vəzifələr qoyduğunu diqqətə çatdırıb. Naqif Həmzəyev, həmçinin bildirib ki, 252 ərazi ilk partiya təşkilatında 42 min 112 nəfər partiya üzvünü birləşdirən YAP Gəncə şəhər təşkilatı da böyük inkişaf yolu keçərək öz sıralarını daim genişləndirib, partiyanın proqram və prinsiplərinə uyğun olaraq qarşıya qoyulan vəzifələrin icrasını ləyaqətlə yerinə yetirib. Sevindirici haldır ki, təşkilatın üzvlərinin 56,3 faizini gənclər, 62,7 faizini isə qadınlar təşkil edir.

Sonda Gəncə şəhərinin ictimai-siyasi həyatında fəallıq göstərən veteran partiya üzvləri təltif edilib, YAP sıralarına yeni qoşulan bir qrup gəncə partiya vəsiqələri təqdim olunub.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov YAP Gəncə şəhər təşkilatının 42 mininci üzvlük vəsiqəsini ADAU-nun tələbəsi Gülşən Nəbiyevaya təqdim edərək milyonlarla insanın inam və etimad ünvanına çevrilən partiyanın sıralarında uğurla addımlamağı arzulayıblar.

# "Azərbaycan ailəsi-2018" film festivalının qalibləri mükafatlandırılıb





Noyabrın 29-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Heydər Əliyev Fondunun və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə həyata keçirilən "Azərbaycan ailəsi" film festivalının qaliblərinin mükafatlandırılması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, mərasimdə əvvəlcə festivala təqdim olunmuş film və fotolardan ibarət videoçarx nümayiş etdirilib.

Məlumat verilib ki, "Azərbaycan ailəsi" film festivalına 2009-cu ildən start verilib. Artıq dördüncü ildir ki, film festivalı çərçivəsində "Həyatdan şəklə" adlı fotomüsabiqə də keçirilir. Təqdim olunan işlər Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib və qaliblər müəyyən edilib.




Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək bildirib ki, bu gün dünyada ailələrin sayının azaldığı müşahidə olunur. Təəssüf ki, bir çox ölkələrdə ailə anlayışı sosial institut kimi öz əhəmiyyətini itirmək üzrədir. Azərbaycanda isə ailə vətəndaş cəmiyyətinin formalaşmasında əsas element kimi qəbul olunur.

Komitə sədri qeyd edib ki, ulu öndər Heydər Əliyev hər zaman ölkəmizdə ailə siyasətinin formalaşdırılması işinə böyük diqqət yetirib. Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev ailənin önəmli rolunu qiymətləndirərək vurğulayıb ki, ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəkdə olmalıdır. Bu məsələləri hər zaman diqqət mərkəzində saxlayan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva da ölkədə ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir, qaçqın və məcburi köçkün ailələrə xüsusi qayğı göstərir.

Vurğulanıb ki, "Azərbaycan ailəsi" festivalının keçirilməsində əsas məqsədlərdən biri kinematoqrafiyanın geniş imkanlarından istifadə edərək bu sahədə mövcud olan problemləri işıqlandırmaqla onların həlli yollarının axtarılmasıdır.

Baş nazirin müavini Əli Əhmədov "Azərbaycan ailəsi" festivalının ailə dəyərlərinin qorunmasına və təbliğinə xidmət etdiyini bildirib. O qeyd edib ki, mənəvi sərvətimiz hesab olunan ailə cəmiyyətimizin özəyidir. Bəzi ölkələrdə cəmiyyət ailəsiz təsəvvür oluna bilər, Azərbaycanda isə bu cür deyil. Bizdə dövlət siyasətində ailəyə qayğı mühüm önəm kəsb edir. Festivalın digər müsbət təsiri odur ki, bu, həm də mədəni hadisədir. Cəmiyyətdə insanlar bu festival vasitəsilə öz yaradıcılıq imkanlarını inkişaf etdirə bilirlər.

Mədəniyyət naziri Əbülfəs Qarayev qeyd edib ki, bu festival vasitəsilə yaradıcı insanlar öz potensiallarını beynəlxalq aləmdə təbliğ etmək imkanı qazanırlar. Layihə çərçivəsində ailə ilə bağlı toxunulan mövzular hüdudsuzdur. Burada mədəniyyət, təhsil, sağlamlıq və digər sahələrin önündə ailə institutunun gəldiyi göstərilir. Bu festivala geniş auditoriyanın cəlb edilməsinin əsas səbəblərindən danışarkən onun təşkilatçılarından birinin də Heydər Əliyev Fondunun olmasını göstərmək lazımdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyətində bu məsələ önəmli yer tutur.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak bildirib ki, hər bir cəmiyyətdə sağlam ailə təfəkkürü təhsilə, səhiyyəyə və mənəviyyata müsbət təsir edir. Azərbaycanda ailə institutunun qorunması ilə bağlı tədbirlərin görüldüyünü deyən Mələk Çakmak əlavə edib ki, BMT bu sahədə tərəfdaşlıq etməkdən məmnundur.

Sonda müxtəlif nominasiyalar üzrə "Azərbaycan ailəsi-2018" film festivalının və "Həyatdan şəklə" fotomüsabiqəsinin qaliblərinə diplom və qiymətli hədiyyələr təqdim olunub.

# Ədliyyə orqanlarında vətəndaşlara xidmət səviyyəsi yüksəlir

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır.



Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan ədliyyəsinin 100 illik yubileyinin qeyd olunduğu ərəfədə vətəndaşların daha çox müraciət etdiyi ədliyyə sahəsində, o cümlədən qeydiyyat və notariat fəaliyyəti ilə bağlı xidmətlər göstərən strukturların yerləşdiyi inzibati binada yeni xidmət mərkəzi istifadəyə verilib.

Ədliyyə naziri Fikrət Məmmədov müasir tələblərə cavab verən və ən yeni informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilən mərkəzdə yaradılmış şəraitlə tanış olub. Nazir yubiley ərəfəsində qüvvəyə minmiş notariat haqqında qanuna edilmiş dəyişikliklərin müasir texnologiyalar geniş tətbiq olunmaqla vətəndaşlara daha rahat, məsafədən, video əlaqə vasitəsilə xidmətlərin göstərilməsində mühüm əhəmiyyətini qeyd edib, əhaliyə göstərilən hüquqi xidmətlərin daha səmərəli təşkili və vətəndaş məmnunluğunun təmin olunması ilə bağlı müvafiq tapşırıqlarını verib.

Tanışlıq zamanı məlumat verilib ki, mərkəzdə vətəndaşlar üçün əlverişli şərait yaradılıb, o cümlədən əhaliyə göstərilən xidmətlər barədə məlumatların əldə edilməsi imkanının asanlaşdırılması məqsədi ilə elektron lövhə quraşdırılıb. Bu da vətəndaşlara aidiyyəti qurumların fəaliyyəti ilə bağlı zəruri məlumatları əldə etməyə, ərizələrin tərtib edilərək çap olunmasına imkan yaradır. Eyni zamanda, qəbul üçün elektron növbə sistemi, "video-qəbul" təşkil edilib.

Burada notariat hərəkətləri, vətəndaşlıq vəziyyəti aktlarının və qeyri-kommersiya hüquqi şəxslərin qeydiyyatı, apostilin verilməsi, notariat arxivindən sənədlərin surətlərinin əldə edilməsi, mətbu nəşrlərin uçotunun aparılması sahəsində əhaliyə xidmətlər göstərilir.

Həmçinin mərkəzdə vətəndaşların rahatlığının təmin edilməsi, o cümlədən əlillərin sərbəst hərəkəti üçün hər cür şərait yaradılıb, qəbul işinin səmərəli təşkili, təhlükəsizliyin təmin edilməsi məqsədi ilə zəruri avadanlıqlar quraşdırılıb. Gözləmə zalında vətəndaşların hüquqi maarifləndirilməsi məqsədilə ədliyyə xidmətlərinə dair müxtəlif, həmçinin ədliyyə tarixi və fəaliyyəti barədə videoçarxlar nümayiş etdirilir.

Yüzillik yubileyini qeyd edən Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların istifadəsinə verilmiş yeni mərkəz insanlara yüksəkkeyfiyyətli xidmətlərin göstərilməsinə, onların ədliyyə orqanlarına əlçatanlığının asanlaşdırılmasına və şəffaflığın artırılmasına xidmət edir.

# Cənubi Koreyada ilk dəfə Azərbaycan xalçalarının sərgisi açılıb

Azərbaycanın Koreya Respublikasındakı səfirliyi və Koreya Fondunun birgə təşkilatçılığı, "Azərxalça" ASC-nin dəstəyi ilə Seul şəhərində "Xalçalar-Azərbaycanın inciləri" adlı sərgi açılıb.



Cənubi Koreyada Azərbaycan xalçalarının ilk dəfə nümayiş olunduğu sərgi dekabrın 19-dək bir sıra nüfuzlu tədbirlərə evsahibliyi etmiş Koreya Fondunun Qalereyasında keçirilir. Sərgidə Azərbaycanın 9 xalçaçılıq məktəbinə (Bakı, Qarabağ, Qazax, Quba, Gəncə, İrəvan, Naxçıvan, Şirvan, Təbriz) aid olan 18 xalça nümayiş etdirilir.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, Koreyanın dövlət qurumlarının məsul şəxslərinin, diplomatik nümayəndəliklərin rəhbərlərinin, ictimai xadimlərin, aparıcı şirkət rəhbərlərinin, nüfuzlu ali təhsil ocaqlarının rəhbərlərinin, mədəniyyət mərkəzlərinin nümayəndələrinin iştirak etdikləri açılış mərasimində Koreya Fondunun prezidenti Sihyunq Li Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Xalçalar - Azərbaycanın inciləri" adlı sərgini təşkil etməkdən məmnun olduğunu bildirib. Qeyd edib ki, 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlər qurulduqdan sonra iqtisadiyyat, müqaviləhüquq, müdafiə kimi bir sıra əhəmiyyətli sahələrdə əməkdaşlıq istiqamətində mühüm addımlar atılıb.

Sihyunq Li rəhbərlik etdiyi Koreya Fondunun Azərbaycan mədəniyyətini və incəsənətini Koreya ictimaiyyətinə tanıtmağa çalışdığını bildirərək hazırkı sərgini UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin Koreyada tanıdılması baxımından əlverişli bir imkan kimi dəyərləndirib. O, Azərbaycan xalçaçılıq sənətinin qədim dövrlərdən günümüzədək mühafizə edilib gətirildiyini və bu sərginin Azərbaycanın bədii və mədəni irsinin ifadəsi olduğunu qeyd edib.

Səfir Rəmzi Teymurov Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə Koreyada ilk dəfə keçirilən Azərbaycan xalça sərgisinin tarixi bir hadisə olduğunu bildirib. O, Azərbaycan xalçaları barədə qonaqlara qısa məlumat verərək xalçaçılıq sənətinin əsrlərboyu mühafizə edilərək bugünədək gətirildiyini, 2010-cu ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edildiyini, dünyada ilk ixtisaslaşmış xalça muzeyinin məhz Azərbaycanda təsis olunduğunu, Azərbaycan xalçalarının Luvr Muzeyində, Metropolitan, Boston, Filadelfiya, Viktoriya Albert incəsənət muzeylərində, eləcə də Ermitajda nümayiş etdirildiyini diqqətə çatdırıb.

Səfir son illərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın xüsusi diqqəti ilə Azərbaycan xalçalarının xaricdə təbliğinin həyata keçirildiyini, hökumətin ölkədə xalça istehsalını genişləndirməyə çalışaraq, yeni ixrac siyasətinə uyğun olaraq xalçaların Koreya da daxil olmaqla daha geniş coğrafi məkana ixracı istiqamətində müvafiq addımlar atdığını deyib.

Azərbaycan xalçaları ilə tanış olan qonaqlar onların füsunkar gözəlliyinin böyük təəssürat oyatdığını bildirib, Azərbaycan xalçalarının Koreyada satışını arzuladıqlarını vurğulayıblar.

Sərgidə Azərbaycan xalçaları ilə yanaşı, milli geyimlərimiz, musiqi alətlərimiz, mədəniyyət nümunələrimizi əks etdirən suvenirlər, o cümlədən Azərbaycan xalçalarına, xalçaçılıq məktəblərinə aid jurnal, kitab və broşürlər nümayiş etdirilib. Sərgi salonunda milli musiqi sədaları altında Azərbaycan xalçalarının hazırlanması ilə bağlı qısa videoçarx nümayiş olunub.

Yüksək maraq göstərilən sərgini minlərlə koreyalı və əcnəbinin, o cümlədən ali təhsil ocaqlarının tələbələrinin ziyarət edəcəyi gözlənilir.

# Neft ölkəsinin qeyri-neft məhsullarına da tələbat artır

*Əvvəli 1-ci səh.*

Son dövrlər ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər qeyri-neft sektorunda məhsul istehsalını artırmağa və ixracını genişləndirməyə imkan verib. Bu gün yaxın dövrlərədək idxal etdiyimiz məhsulların böyük bir qismi yerli müəssisələrimizdə istehsal olunur. Üstəlik, ixrac etdiyimiz qeyri-neft məhsullarının həcmi və çeçidləri sürətlə artır.

Məlumdur ki, qeyri-neft sektoru özü də çoxsaylı sahələrə ayrılır. Hazırda ölkəmizdə bu sektor üzrə ən çox inkişaf edən sahələr qeyri-neft sənayesi və kənd təsərrüfatıdır. O cümlədən tikinti materiallarının istehsalı, turizm də ölkəmizdə sürətlə inkişaf edir. Turizm xaricdən ölkəyə birbaşa valyuta daxil olması deməkdir. Tikinti materiallarının istehsalının artması isə ölkədən valyutanın çıxmasının qarşısını alır.

İndi də Azərbaycanın xarici ticarəti haqqında son statistika: Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-sentyabr aylarında Azərbaycan dünyanın 176 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib. 102 ölkəyə məhsul ixrac, 168 ölkədən idxal olunub. Beləliklə, hesabat dövründə xarici ticarət dövriyyəsi 23 milyard 159,4 milyon, o cümlədən ixracın dəyəri 15 milyard 254,2 milyon, idxalın dəyəri 7 milyard 905,2 milyon dollar təşkil edib. Nəticədə 7 milyard 349 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb ki, bu da böyük göstəricidir. Digər müsbət fakt isə ötən ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsinin faktiki qiymətlərlə 34,3, o cümlədən ixracın 37,9, idxalın 28 faiz artmasıdır.

İndi isə ölkəmizin ixracatında qeyri-neft məhsullarının payının artmasını təsdiqləyən rəqəmlərə nəzər salaq: ötən ilin yanvar-sentyabr ayları ilə müqayisədə ölkə üzrə qeyri-neft məhsullarının ixracının dəyəri faktiki qiymətlərlə 12,9, real istifadədə 3,5 faiz artaraq 1 milyard 207,4 milyon dollara çatıb. İxracın strukturunda xam neft, təbii qaz, neft məhsulları ilə yanaşı, meyvə-tərəvəz, alüminium, plastik kütlə, qara metallar və onlardan hazırlanan məmulatlar, pambıq lifi və ipliyi, kimya sənayesi məhsulları, şəkər, bitki yağları, alkoqollu və alkoqolsuz içkilərin payı üstünlük təşkil edib.

Artım təbii ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı ölkədə həyata keçirilən siyasət sayəsində mümkün olub. İslahatlar nəticəsində ölkədə hər il onlarca yeni istehsal müəssisələri yaradılır və həmin müəssisələrdə istehsal edilən məhsullar daxili tələbatı ödəməklə yanaşı, ixrac da olunur. Xüsusilə kənd təsərrüfatı məhsullarının ixracı daha sürətlə artır. Həmçinin "Made in Azerbaijan" brendi ilə ixrac edilən bu cür məhsulların alıcıları olan ölkələrin coğrafiyası genişlənir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işləri görülür

Azərbaycanda hər 10 ildən bir keçirilən, mühüm dövlət əhəmiyyətli hadisə hesab olunan əhalinin siyahıyaalınması gələn il oktyabrın 1-10-da keçiriləcək. Xatırladaq ki, bununla bağlı Prezidentin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli fərmanı var.

Fərmandan irəli gələn məsələlərə dair Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli qərarına əsasən, əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmişdir. Ayrı-ayrı nazirlik, komitə, yerli icra hakimiyyətlərinə, idarə və təşkilatlara dəqiq icra müddəti göstərilməklə vəzifələr müəyyən edilmiş, tapşırıqlar verilmişdir. Əhalinin siyahıyaalınmasına hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənməsi, nəticələrinin dərc edilərək yayılması isə Dövlət Statistika Komitəsinə həvalə olunmuşdur.

Siyahıyaalmaya hazırlıq işlərinin və digər tədbirlərin vaxtında yerinə yetirilməsini, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılmasını təmin etmək üçün Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya, şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti başçıları müavinlərinin sədrliyi ilə əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaradılmışdır. Mərkəzi komissiyanın tərkibinə 21 nazirlik, komitə və digər qurumların nümayəndələri daxil edilmişdir. Bunlardan əlavə, əhalinin siyahıyaalınması ilə bağlı sorğu vərəqələri işlənib hazırlanaraq rəy və təkliflərini bildirmək üçün müvafiq nazirlik və komitələrə göndərilmiş, alınan rəylər ümumiləşdirilmişdir.

Onu da qeyd edək ki, bu mühüm tədbirin sənədlərinin işlənməsi Azərbaycan Respublikasının qanunvericiliyinə, beynəlxalq təcrübədə qəbul olunmuş metodologiyaya, BMT-nin 2020-ci il raundunda əhalinin və mənzil fondunun siyahıyaalınmasına dair Avropa statistikləri konfransının tövsiyələrinə və MDB Statistika Komitəsinin metodoloji sənədlərinə əsaslanır.

Sonda xatırladaq ki, Azərbaycanda əhalinin sayı 1999-cu ildə 7 953 000 (şəhər - 51 faiz, kənd - 49 faiz), 2009-cu ildə 8 922 447 (53,1 faiz şəhər, 46,9 faiz kənd), 2018-ci il mart ayının 1-i vəziyyətinə isə 9 911 472 nəfər (52,9 faiz şəhər, 47,1 faiz kənd) olmuşdur.

***"Azərbaycan"***

Noyabrın 28-də keçirilən Azərbaycan Müəllimlərinin XV qurultayında səsləndirilən fikirlər son illər ölkəmizdə təhsil sisteminin müasir tələblərə uyğunlaşması istiqamətində mühüm addımlar atıldığını bir daha təsdiqlədi.
Artıq uzun müddətdir müəllimlərin sosial həyat səviyyəsinin yaxşılaşdırılması, təhsilin keyfiyyətinin artırılması istiqamətində çox mühüm addımlar atılır. Qurultayda da qeyd edildi ki, təhsil sisteminin inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir və həmişə də belə olacaq.
Qurultayda iştirak edən Milli Məclisin deputatları, elm adamları və təhsil işçiləri Azərbaycanın müasir təhsil sistemi, bu istiqamətdə həyata keçirilən dövlət siyasəti və yeni islahatlar, eləcə də müəllimlərin XV qurultayı barədə müsbət fikirlər səsləndiriblər.





# Bütün nailiyyətlərin əsasında bilik, biliyin əsasında isə təhsil dayanır

## Azərbaycan Müəllimlərinin XV qurultayında qəbul edilən qərarlar təhsil sisteminin inkişafına müsbət impuls verəcək

### Təhsil sistemində inqilabi yeniliklər edilir

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, professor **Bəxtiyar Əliyev** dedi ki, istənilən bir ölkənin gücü, potensialı onun elmi və təhsili ilə ölçülür. Bu gün dinamik inkişaf tempinə malik dövlətlərdən biri olan müstəqil Azərbaycanda da iqtisadiyyatın tərəqqisi ölkədə təhsilin inkişafına müsbət təsirini göstərir. Ölkədə davamlı olaraq aparılan təhsil islahatları, məktəb tikintisi, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi nəticəsində əməkhaqqı artımı, işə qəbulun şəffaf təşkili bu peşəyə marağı ilbəil artırır.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasətin əsas prioritetlərindən biri ölkədə zamanın çağırışlarına cavab verən və beynəlxalq standartlara uyğun milli təhsil sisteminin qurulmasıdır. Dövlət başçısının 2013-cü ildə imzaladığı sərəncama əsasən təsdiq edilən Təhsilin inkişafı ilə bağlı Dövlət Strategiyasının icrasına başlanılmasından ötən beş ildə mərhələli şəkildə təhsilin bütün pillələrində - məktəbəqədər təhsil pilləsindən başlamış ali təhsilədək bütün səviyyələrdə uğurlu islahatlar həyata keçirilib və bu gün də Təhsil Nazirliyi tərəfindən bu islahatlar davam etdirilir.

Sevindirici haldır ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi ölkədə təhsilin inkişafına mühüm töhfələr verir. Son 5 ildə ölkədə 500-dən çox, 2003-2018-ci illər ərzində isə 3500-dək məktəb binası tikilib və ya əsaslı təmir olunub. Bunun nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb.

Bəxtiyar Əliyev dedi ki, ümumiyyətlə, ölkədə təhsilə qayğı bu sistemin bütün müəssisələrini - məktəbəqədər, orta ümumtəhsil, peşə təhsili və ali məktəb səviyyəsini əhatə edir. Dövlət strategiyasının qəbulundan ötən 5 il ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunub, bir sıra əsaslı nailiyyətlər əldə edilib.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nı bu sahədə atılmış növbəti mühüm addımlardan biri kimi dəyərləndirən professora görə, son illərdə Milli Məclisdə məktəbəqədər və peşə təhsili ilə bağlı qəbul edilən yeni qanun layihələri təhsil sisteminin inkişafına mühüm impuls verəcək. Eyni zamanda Təhsil Nazirliyinin ali məktəblərdəki davamlı islahatlarını ali təhsil ocaqlarının günün tələbləri səviyyəsinə yüksəldilməsi istiqamətində atılan müsbət addımlar kimi dəyərləndirmək olar.

Azərbaycan Müəllimlərinin XV qurultayının yüksək səviyyədə təşkil olunduğunu söyləyən parlamentin komitə sədrinin müavini qurultayda qeyd edilən təhsildə nailiyyətlərin əhəmiyyətini bir daha vurğuladı: "Son illərdə Azərbaycan təhsilinin əldə etdiyi uğurlar sevindiricidir. Qısa müddət ərzində uşaqların 75 faizinin məktəbəqədər hazırlığa cəlb edilməsi gələcəkdə onların təhsilinə verilən bir dəstəkdir. Bunu inqilabi addım kimi də qiymətləndirə bilərik. Digər tərəfdən, qısa zamanda orta məktəbi bitirən şagirdlərin mükəmməl göstəricisinin 80 faizdən artıq olması təhsildə aparılan uğurlu islahatların nəticəsidir. Düşünürəm ki, bütün bunlar cənab Prezidentin qarşıya qoyduğu insan kapitalının formalaşdırılmasına dair dövlət siyasətinin həyata keçirilməsinin bariz nümunəsidir. Bu gün Təhsil Nazirliyi bu istiqamətdə çox uğurlu addımlar atır".

Bəxtiyar Əliyev əlavə etdi ki, bu addımlar respublikamızın beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsinə, ölkə təhsilinin, mütəxəssislərinin, ümumilikdə isə Azərbaycanın dünyada rəqabətqabiliyyətli imkanlarına görə birinci onluqda yer almasına töhfə verəcək.

### İslahatlar daha da dərinləşdirilməlidir

Təhsil Nazirliyinin təhsilin inkişafı yönündə gördüyü işləri yüksək qiymətləndirən Milli Məclisin deputatı **Qüdrət Həsənquliyev** hökumətin bu istiqamətdə siyasətini dəstəklədiyini diqqətə çatdırdı.

Deputatın fikrincə, son illərdə Azərbaycanda təhsil sahəsində mühüm addımlar atılır, yeni-yeni sənədlər qəbul edilir və lazımi işlər görülür: "Hesab edirəm ki, son illərdə bu istiqamətdə görülən işlər təqdirəlayiqdir. Ancaq mən repetitorluğun tamamən ləğv olunmasının tərəfdarıyam. Hesab edirəm ki, müəllimlərin əməkhaqqı artırılarsa, bu məsələ həll oluna bilər. Düzdü, problemin həlli üçün bəzi addımlar atılır. Düşünürəm ki, bu sahədə islahatlar dərinləşdirilməlidir. Repetitor hər bir azərbaycanlı ailəsinin büdcəsinə ciddi ziyan vurur".

Deputat hesab edir ki, orta məktəblərdə tədris olunan dərs proqramları şagirdlərin ali məktəblərə qəbulu üçün yetərli olmalıdır. Belə olarsa, repetitorlara ehtiyac qalmayacaq: "Orta məktəbin buraxılış imtahanlarının nəticələri də nəzərə alınıb ali məktəbə qəbul imtihanı keçirilməlidir. Bu, dünyanın inkişaf etmiş ölkələrinin keçdiyi yoldur və düşünürəm ki, Azərbaycan da bu mərhələyə gəlməlidir. Hesab edirəm ki, görülən işlər bu nəticəyə gətirib çıxaracaq. Təhsili inkişaf etdirmədən cəmiyyətimizin qarşısında duran digər məsələləri həll edə bilmərik".

### Şagirdlərin keyfiyyətli təhsil alması üçün hər cür şərait yaradılıb

Cəbrayıl rayonunun işğaldan azad edilən Cocuq Mərcanlı kəndinin şəhid Novruz Aslanov adına tam orta məktəbinin direktoru **Zamin Həziyev** isə təhsilin keyfiyyətinin dövrün tələblərinə uyğun yüksəldilməsinin daim aktual bir məsələ olduğunu söylədi.

Hazırda rəhbərlik etdiyi məktəbdə 100-dək şagirdin təhsil aldığını, 23 pedaqoji işçinin çalışdığını deyən Zamin Həziyev dövlət başçısının diqqət və qayğısının real nəticəsi olaraq Cocuq Mərcanlıda canlanma hiss olunduğunu diqqətə çatdırdı: "Təhsilin inkişafı üçün görülən tədbirlər hər il yüksək templə davam etdirilir. Ümumi təhsil müəssisələrində şagirdlərin keyfiyyətli təhsil alması üçün hər cür şərait yaradılıb. Hər il inşa edilən yeni məktəblərin istifadəyə verilməsi, onların məktəb ləvazimatları ilə təchiz olunması, pedaqoji heyətin daha savadlı kadrlardan təşkil edilməsi uğurlu nailiyyətlərdir".

Direktorun sözlərinə görə, ümumi təhsil sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər Cəbrayıl rayonunun təhsilində də əks olunub. Bu il rayon üzrə 1181 nəfər ali məktəbə qəbul edilib. 11 şagird olimpiada qalibidir. Ötən il 342 nəfər ali məktəbə qəbul olunub. Onlardan 29 nəfər qəbul imtahanlarında 600-dən yuxarı bal toplayıb. 2 məzun isə orta məktəbi qızıl medalla bitirib: "Növbəti illər üçün qarşımıza qoyduğumuz məqsəd ümumi təhsil sahəsində şagirdlərə keyfiyyətli bilik aşılamaqla yanaşı, onları vətənpərvər, ləyaqətli vətəndaş kimi yetişdirməkdir".

Ölkəmizin inklüziv cəmiyyət quruculuğu istiqamətində qazandığı uğurların başlıca amili təhsil və insan potensialının formalaşdırılmasıdır. Bütün nailiyyətlərin əsasında bilik, biliyin əsasında isə təhsil dayanır. Söylənilən fikirlərə əsaslanaraq deyə bilərik ki, təhsil sahəsində aparılan islahatlar, qəbul edilən dövlət strategiyası və proqramlar Azərbaycanın təhsil sisteminin yeni inkişaf mərhələsinə qədəm qoymasına imkan yaradacaq.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Məleykə Abbaszadə** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 06 | Gəncə | Gəncə, Daşkəsən, Samux, Göygöl, Gədəbəy |
| **Sahil Babayev** Əmək və əhalinin sosial müdafiəsi naziri | 07 | Bərdə | Bərdə, Tərtər, Ağcabədi |
| **Azad Rəhimov** Gənclər və idman naziri | 07 | Biləsuvar | Biləsuvar, İmişli, Beyləqan, Ağcabədi, Cəbrayıl |
| **Oqtay Şirəliyev** Səhiyyə naziri | 07 | Neftçala | Neftçala, Şirvan, Salyan, Biləsuvar |
| **Ceyhun Bayramov** Təhsil naziri | 10 | Abşeron | Abşeron, Sumqayıt, Qubadlı, Zəngilan, Kəlbəcər |
| **Əbülfəs Qarayev** Mədəniyyət naziri | 14 | Hacıqabul | Hacıqabul, Şirvan, Kürdəmir, Sabirabad, Saatlı, İmişli, Füzuli, Beyləqan, Xocavənd |
| **Ramin Quluzadə** Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri | 14 | Biləsuvar | Biləsuvar, Cəlilabad, Salyan, Neftçala, Cəbrayıl |
| **Kərəm Həsənov** Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 14 | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Siyəzən, Qubadlı |
| **Zakir Qaralov** Baş prokuror | 15 | Xızı | Xızı, Sumqayıt, Abşeron, Qubadlı, Zəngilan |
| **Fikrət Məmmədov** Ədliyyə naziri | 21 | Kürdəmir | Kürdəmir, Ucar, Ağsu |
| **Muxtar Babayev** Ekologiya və təbii sərvətlər naziri | 21 | Hacıqabul | Hacıqabul, Şirvan, Sabirabad, Saatlı |
| **Kəmaləddin Heydərov** Fövqəladə hallar naziri | 21 | Gəncə | Gəncə, Göygöl, Daşkəsən, Samux, Gədəbəy |
| **İnam Kərimov** Kənd təsərrüfatı naziri | 21 | İmişli | İmişli, Füzuli, Beyləqan, Xocavənd |
| **Şahin Mustafayev** İqtisadiyyat naziri | 21 | Ağcabədi | Ağcabədi, Ağdam, Laçın |
| **Rövşən Rzayev** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 21 | Sumqayıt | Sumqayıt, Abşeron, Qubadlı |
| **Mikayıl Cabbarov** Vergilər naziri | 24 | Yevlax | Yevlax, Mingəçevir, Şəki, Bərdə, Tərtər, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Zərdab |
| **Mübariz Qurbanlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 25 | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan |
| **Səfər Mehdiyev** Dövlət Gömrük Komitəsinin sədri | 28 | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran |

**Qeyd:** Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır.

# *Umberto de PRETTO:* "Lapis-Lazuli" layihəsi regionun qlobal iqtisadiyyata daha çox inteqrasiya olunmasına və əmtəə dövriyyəsinin artırılmasına kömək edəcək"

"Lapis-Lazuli" layihəsi çox böyük əhəmiyyətli bir layihə olaraq regionun qlobal iqtisadiyyata daha çox inteqrasiya olunmasına və əmtəə dövriyyəsinin artırılmasına kömək edəcək.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) baş katibi Umberto de Pretto bu sözləri "Lapis-Lazuli" nəqliyyat dəhlizinin iştirakçısı olan ölkələrin nəqliyyat nazirlərinin "Avaza" milli turizm zonasında keçirilmiş beynəlxalq konfransında söyləyib.

O deyib: "Bu marşrut üzrə səmərəli yükdaşımalar sistemi yaradılması və yükdaşımaların ləngidilməməsi üçün qanunvericilik səviyyəsində bütün tədbirlər görülməlidir. Viza dəstəklənməsi məsələləri prioritet məsələdir".

Umberto de Pretto peşəkar sürücülər üçün sadələşdirilmiş viza rejimi tətbiq olunmasını təklif edib. O deyib: "Bizdə təyyarəçilər və dənizçilər üçün mövcud viza sistemi yükdaşımaların sürətini artırır. Mən "Lapis-Lazuli" marşrutu üzrə hərəkət edəcək sürücülər üçün də buna oxşar sistem tətbiq olunmasını təklif edirəm. Axı nəqliyyatı elektriklə müqayisə etmək olar - o da müqavimət az olan tərəfə gedir. Əgər "Lapis-Lazuli" marşrutu üzrə hərəkət etmək sadə olsa, bu, çoxsaylı tranziterləri cəlb edəcək".

Xatırladaq ki, ötən həftə Azərbaycan Prezidenti İlham Əliyevin Aşqabada rəsmi səfəri çərçivəsində böyük sənədlər paketi imzalanıb. O cümlədən "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımaların iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında Saziş"i Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Dövlət Miqrasiya Xidmətinin sədri Merqen Qurdov imzalayıblar.

"Lapis-Lazuli" marşrutuna dair saziş 2017-ci il noyabrın 15-də Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında Əfqanıstana dair VII Regional iqtisadi əməkdaşlıq konfransında (RECCA - Regional Economic Cooperation Conference on Afghanistan) imzalanıb.

Bu sənədin reallaşdırılması regionun iqtisadi inteqrasiya səviyyəsini yüksəltməyə, ticarətin həcmini əhəmiyyətli dərəcədə artırmağa xidmət edir. "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizi həmin marşrut üzrə yükdaşımaların həcmini artırmaq üçün yeni imkanlar yaradır.

# *Avni BIÇAKLI:* "Lapis-Lazuli" layihəsi İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri arasında ticari-iqtisadi əlaqələrin genişlənməsində böyük rol oynayır"

"Lapis-Lazuli" layihəsi İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan ölkələr arasında ticari-iqtisadi əlaqələrin genişlənməsində böyük rol oynayır. AZƏRTAC xəbər verir ki, bunu "Lapis-Lazuli" tranzit dəhlizinin iştirakçısı olan ölkələrin nəqliyyat nazirlərinin "Avaza" Milli Turizm Zonasında keçirilən Beynəlxalq konfransında İqtisadi Əməkdaşlıq Təşkilatı baş katibinin müavini Avni Bıçaklı söyləyib.

Bu aktual layihənin həyata keçirilməsi üçün hökumətlərarası əməkdaşlığın əhəmiyyətini göstərən Avni Bıçaklı deyib: "İƏT "Lapis-Lazuli" nəqliyyat dəhlizinin reallaşdırılması üçün mümkün olan hər şeyi edəcək. Bu layihə dəmir yolu daşımalarının artmasına böyük töhfə verəcək". Türkiyə, İran, Pakistan, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Tacikistan, Özbəkistan, Qırğızıstan və Əfqanıstanı birləşdirən İƏT baş katibinin müavini deyib: "Lapis-Lazuli" regionun nəqliyyat sisteminin sabit inkişafı yolu ilə gedir".

"Lapis-Lazuli" marşrutu üzrə saziş 2017-ci il noyabrın 15-də Aşqabadda Əfqanıstan üzrə VII Regional iqtisad əməkdaşlıq konfransı çərçivəsində Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanıb.

Bu sənədin reallaşdırılması regionun iqtisadi inteqrasiyasını və ticarətin həcmini əhəmiyyətli dərəcədə artırmağa xidmət edir. "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizi bu marşrut üzrə yükdaşımaların həcmini artırmaq üçün yeni imkanlar açır.

# Cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimi 26 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Baş Qərvənd, Sarıcalı, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Qafqazın siyasi gündəmini Bakı və Ankara müəyyənləşdirir

## SAM-ın Türkiyədə təşkil etdiyi "Azərbaycan həftəsi" maraqla qarşılanıb

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (SAM) və Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi yanında Strateji Araşdırmalar Mərkəzinin (Türkiyə XİN SAM) birgə əməkdaşlığı çərçivəsində 26-30 noyabrda Ankarada "Azərbaycan həftəsi" keçirilib.



Bu məqsədlə Azərbaycan Prezidentinin Administrasiyası və Xarici İşlər Nazirliyinin, SAM-ın əməkdaşlarından, deputatlardan və müstəqil ekspertlərdən ibarət nümayəndə heyəti Ankarada səfərdə olub. Səfər ümummilli lider Heydər Əliyevin Ankarada Heydər Əliyev parkında ucaldılan abidəsinin ziyarəti ilə başlayıb.

Səfər çərçivəsində nümayəndə heyətinin iştirakı ilə respublikamızın səfirliyində, Türkiyə Prezidenti Administrasiyasında, Türkiyə XİN SAM, Avrasiya İncələmələr Mərkəzi (AVİM) və Siyasi, İqtisadi və Sosial Araşdırmalar Mərkəzində (SETA) geniştərkibli "dəyirmi masa", görüş və beynəlxalq konfrans keçirilib.

Nümayəndə heyəti əvvəlcə Azərbaycanın qardaş ölkədəki səfirliyində olub, səfir Xəzər İbrahimlə görüşüb, habelə Ankara Universitetində və Ankarada yerləşən müxtəlif beyin mərkəzlərində fəaliyyət göstərən azərbaycanlılarla Türkiyə-Azərbaycan ikitərəfli münasibətlərinə dair müzakirələr aparıb.

Səfərin ikinci günü nümayəndə heyəti Türkiyənin Prezident Administrasiyasında Prezident Rəcəb Tayyib Ərdoğanın müşaviri Tuğba Nur Sönməzlə görüşüb. Qonaqları səmimi salamlayan T.N.Sönməz ikitərəfli münasibətlərin hazırkı vəziyyətinə və gələcək perspektivlərinə dair məlumat verib və iki ölkə arasındakı qarşılıqlı əməkdaşlıq sahələrinin gələcəkdə də genişlənəcəyinə ümidvar olduğunu bildirib. Görüş Azərbaycan-Türkiyə əlaqələrinin tarixi və dövlət başçıları səviyyəsində davam edən mehriban qonşuluq siyasəti, qlobal miqyaslı layihələrin həyata keçirilməsində iki ölkə arasındakı qarşılıqlı dəstək və strateji tərəfdaşlıq mövzularının müzakirəsi ilə davam edib.

SAM Türkiyədə "Azərbaycan həftəsi" çərçivəsində təşkil etdiyi silsilə tədbirləri davam etdirərək Türkiyə XİN SAM və AVİM-də "dəyirmi masa" formatında görüşlər keçirib. Türkiyə və Azərbaycan arasında siyasi, iqtisadi, təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri və eləcə də regionun siyasi arenasında cərəyan edən hadisələrlə bağlı mövzuların müzakirəsinə həsr edilmiş "dəyirmi masa"lar Türkiyə XİN SAM və AVİM rəsmilərinin, ali məktəblərin akademik heyətinin, eləcə də tanınmış tədqiqat mərkəzlərinin nümayəndələrinin iştirakı ilə keçirilib.

Səfər çərçivəsində SAM "Türkiyə-Azərbaycan əlaqələrinin gələcəyi" mövzusunda beynəlxalq konfrans da təşkil edib. SETA-da keçirilən konfransda Türkiyə və Azərbaycan arasında siyasi səviyyədə mövcud olan dostluq münasibətlərinin iki ölkənin qardaş xalqları arasında özünü büruzə verdiyini qeyd edən Milli Məclisin deputatı, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Musa Qasımlı ikitərəfli münasibətlərin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslandığını bildirib. M.Qasımlı hər iki ölkənin müxtəlif beynəlxalq platformalarda da qarşılıqlı şəkildə bir-birinin mövqeyini dəstəklədiyini diqqətə çatdırıb.

SAM-ın Xarici siyasət məsələlərinin təhlili şöbəsinin müdiri Cavid Vəliyev çıxışında Türkiyə-Azərbaycan ikitərəfli əlaqələrinin regionun siyasi konfiqurasiyasına müsbət yöndə təsir göstərdiyini, siyasi, iqtisadi, enerji və hərbi sahələrdə hər iki dövlətin maraqlarının uzlaşdığını qeyd edib, eyni zamanda, Azərbaycanın Türkiyənin terrorizm və separatizmə qarşı apardığı mübarizəyə dəstək verdiyini xatırladıb.

İki ölkə arasındakı siyasi-iqtisadi, mədəni və digər sahələrdəki əməkdaşlığa dair fikir mübadiləsinin aparılması üçün əlverişli platforma rolunu oynayan konfrans Orta Şərq Texniki Universitetinin əməkdaşı Oqtay Tanrısevər və Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan Parlamentlərarası dostluq qrupunun keçmiş sədri Necdət Ünüvarın ikitərəfli münasibətlərin inkişafı və gələcək perspektivlərinə dair məruzəsi ilə davam edib.

Yerli və xarici mətbuat orqanlarının marağına səbəb olan konfransda elm və ictimaiyyət nümayəndələri, dövlət qurumlarının rəsmiləri, siyasi xadimlər, eləcə də tələbələr iştirak ediblər.

Xatırladaq ki, SAM və Türkiyə XİN SAM arasında 2011-ci ildə imzalanmış Əməkdaşlığa dair Memoranduma əsasən ildə bir dəfə Türkiyə və Azərbaycanda, müvafiq olaraq, "Azərbaycan həftəsi" və "Türkiyə həftəsi" keçirilir. Cari ildə bu ənənəni davam etdirən SAM Türkiyədə dörd günlük "Azərbaycan həftəsi" təşkil edib. Bu zaman keçirilən silsilə tədbirlərin əsas məqsədi elm və ictimaiyyət nümayəndələrini iki ölkənin daxili, xarici və təhlükəsizlik siyasəti barədə məlumatlandırmaqdan və ikitərəfli münasibətlərin inkişafına təkan verməkdən ibarətdir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

Dövlət başçısına minnətdarlıq

# Milli təəssübkeşlik onu vətənə qaytarmışdı

## Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş zabit və əsgər ailələrinə birdəfəlik ödəmələrin verilməsi davam edir

Mübariz Əsgərov 1991-ci ildə Salyan rayon Hərbi Komissarlığı tərəfindən əsgəri xidmətə çağırılanda Dağlıq Qarabağda, eləcə də respublikamızın Ermənistanla həmsərhəd bölgələrində erməni özbaşınalığı, terroru tüğyan edirdi.



O, sovet ordusu sıralarında xidmət edərkən Salyana - ailələrinə yazdığı məktublarında həmişə onu narahat edən erməni vandalları haqqında maraqlanırdı. Əsgəri xidmətdə nümunəviliyinə, təlimlərdə göstərdiyi çevikliyə və şücaətə görə 1992-ci ilin sonlarında hərbi hissə komandanlığının əmri ilə Azərbaycana, evlərinə qısamüddətli məzuniyyətə göndəriləndə artıq respublikamız bir neçə ay idi ki, öz tarixi müstəqilliyinə qovuşmuşdu. Odur ki, Mübariz ürəyində çox götür-qoy etdi, nəhayət, qəti qərara gəldi ki, əsgəri borcunu Rusiyada yox, öz doğma vətənində yerinə yetirsin. Buna görə həm fərəhlənir, həm də ermənilərə qarşı ürəyi qisas hissi ilə yanırdı. Odur ki, bu barədə respublikanın aidiyyəti qurumlarına, hətta Qızıl Aypara Cəmiyyətinə müraciət edərək təcrübəli əsgər kimi Qarabağda hərbi xidmət keçməyi israrla bildirdi və istəyinə nail oldu.

Mübariz Əsgərov 1972-ci ildə Salyan rayonunda anadan olub. Altı qardaş, iki bacıdan sonra dünyaya gələn Mübariz ailənin sonbeşiyi kimi çox əziz idi. 1989-cu ildə Salyan rayon 7 saylı orta məktəbini bitirmişdi. 1991-1992-ci illərdə Rusiyada hərbi xidmətdə olmuşdu. Sonra hərbi xidmətə getmişdi. Bu dönəmdə erməni vandalları himayədarlarına və xaricdən "qorxma-qorxma" deyən lobbilərinə arxalanaraq qədim Azərbaycan torpaqlarını işğal etməyə başlamışdı. 1993-cü il mayın 2-dən Milli Orduda hərbi xidmətdə olan Mübarizi hər gün hansısa bir ailəni, hansısa bir kəndi müsibətə qərq edən şəhid xəbəri rahat buraxmırdı.

Ürəyi qisas hissi ilə yanan Mübariz Əsgərov hərbi qayda-qanunları, silahla necə davranmağı yaxşı bilirdi. Ona görə cəbhəyə ayaq basdığı ilk gündən komandir və döyüşçü yoldaşlarının yaxınına çevrildi, bildiklərini gənclərə öyrədirdi, bilmədiklərini - xüsusilə yerli coğrafi relyeflə bağlı məsələləri komandirlərindən öyrənirdi. Əsgər yoldaşlarını həmişə "tapşırıq zamanı qələbənin, ermənini yerində oturtmağın əsas yolu yerli şəraiti, yolu-izi yaxşı bilməkdir" deyə onları itkisiz döyüşə hazırlayırdı.

Erməni silahlıları 1993-cü il iyunun 12-də növbəti dəfə Ağdərəyə Tərtər istiqamətində hücuma keçəndə ön xətdə vuruşan əsgərlər sırasında Mübariz Əsgərovun bölüyü də var idi. İki günə yaxın davam edən döyüşlərdə təəssüf ki, Mübariz Əsgərov itkin düşür. Məhkəmə qərarı ilə Əsgərov Mübariz Hilal oğlu ölmüş elan edilir və ona şəhid statusu verilir. Vətənin ərazi bütövlüyü uğrunda döyüşlərdə itkin düşmüş yüzlərlə insanın taleyi dövlətin, eləcə də respublika üzrə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının daim diqqətindədir.

Cəsur döyüşçü Mübariz Əsgərovun xatirəsi də həmişə əziz tutulur. Ailə üzvləri dövlət qayğısı ilə əhatə olunur. Salyanlılar fəxrlə bildirirlər ki, bu gün Salyan şəhər uşaq xəstəxanası şəhid Mübariz Əsgərovun adını daşıyır.

"Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli fərmanına əsasən 1997-ci il avqustun 2-dək respublikamızın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilənlərin sırasında şəhid Mübariz Əsgərovun ailəsi də var.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli fərmanına əsasən, ölkəmizin ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarla əlaqədar itkin düşmüş Mübariz Əsgərovun ailə üzvləri - qardaşı Məmmədbağır, bacıları Fərqanə və Sehranə xanım bildirirlər ki, itkin qardaşımıza görə biz dövlət başçısından, rayon icra hakimiyyəti tərəfindən həmişə diqqət və qayğı görmüşük. Buna görə ölkə başçısına, eləcə də şəhid analarına, ailələrinə həmişə himayədarlıq göstərən Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ürəkdən minnətdarıq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# "Hiperrealistik heykəltəraşlıq. Canlıdan seçilmir" - Heydər Əliyev Mərkəzində açılan növbəti sərgi belə adlanır

Noyabrın 29-da Heydər Əliyev Mərkəzində "Hiperrealistik heykəltəraşlıq. Canlıdan seçilmir" adlı sərgi açılıb.

AZƏRTAC xəbər verir ki, beş bölmədən ibarət sərgidə insanı dəqiq təsvir edən obrazlar, monoxrom heykəllər, bədənin müxtəlif hissələrini əks etdirən əsərlər, qeyri-adi ölçülü və deformasiya olunmuş reallığı canlandıran heykəllər ziyarətçilərin böyük marağına səbəb olub.





Sərginin açılışından öncə Almaniyanın Mədəniyyət Mübadiləsi İnstitutunun icraçı direktoru Maksimilian Letste çıxış edərək layihə haqqında məlumat verib. Bildirib ki, sərgi Heydər Əliyev Mərkəzi ilə Almaniyanın Mədəniyyət Mübadiləsi İnstitutunun birgə layihəsi əsasında reallaşıb.

"Yeni üsul, yeni mövzu və yeni materiallar bugünkü sərginin əsasını təşkil edir. Bu sərgi özündə abstrakt incəsənətin bir növünü əks etdirir. Sərginin ümumi ekspozisiyasına nəzər saldıqda realizmə əsaslanan müasir heykəltəraşlığı görürük. Biz bu sərgini dünyanın bir sıra ölkələrində açmışıq. Yəni, bu əsərlər dünyanın müxtəlif muzeylərində və aparıcı sərgi salonlarında nümayiş etdirilib. Bakı öz müasirliyi və multikultural yanaşması ilə seçilən şəhərdir. Belə bir şəhərdə bu cür sərginin açılması təqdirəlayiqdir. Əslində, bu, incəsənətin cazibəsinin təsvir edilməsidir", - deyə Maksimilian Letste vurğulayıb.

Diqqətə çatdırılıb ki, "Hiperrealistik heykəltəraşlıq. Canlıdan seçilmir" sərgisi indiyədək İspaniya, Meksika, Danimarka, Avstraliya, Niderland və Almaniyada nümayiş etdirilib.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Sərginin ekspozisiyasında Amerika Birləşmiş Ştatları, Avstraliya, Kanada, Makedoniya, Fransa və digər ölkələrdən olan sənətkarların canlı təəssürat yaradan əsərləri heyranlıq doğurur.

1960-cı illərdə yaranan hiperrealistik heykəltəraşlıq 1970-ci illərdə inkişaf etməyə başlayıb. Bu sahənin ilklərindən olan Corc Siqal və Dueyn Henson maksimal dərəcədə real, canlı prototipindən fərqlənməyən əsərlər yaradıblar.

Ümumiyyətlə, hiperrealistik heykəltəraşlıq nümunələrini çox asanlıqla canlı adamlarla, real əşyalarla səhv salmaq olar. Müəlliflər insan bədənini - dəri qırışları, saç düzümü və digər xırdalıqları ustalıqla yaradırlar.

Sərgidə dünya şöhrətli heykəltəraşlar - Dueyn Henson (Duane Hanson), Daniel Firman (Daniel Firman), Kerol A.Feyerman (Carole A. Feuerman), Ceymi Salmon (Jamie Salmon), Corc Siqal (George Segal), Kit Edmayer (Keith Edmier), Sem Cinks (Sam Jinks), Mark Sijan (Marc Sijan), Jarko Başeski (Zharko Basheski), Patrisia Piççinini (Patricia Piccinini), Toni Matelli (Tony Matelli), Mel Ramos (Mel Ramos), Matilda ter Heyne (Mathilde ter Heijne), Tom Kübler (Tom Kuebler), Robert Qrem (Robert Graham) və Allen Consun (Allen Jones) əsərləri nümayiş olunur.

Sərgi Heydər Əliyev Mərkəzində 2019-cu il martın 10-dək davam edəcək.

# Yaşıldərə yaşayış massivində arı məhsullarının qablaşdırılması müəssisəsi fəaliyyətə başlayıb

Sumqayıt şəhərinin Yaşıldərə yaşayış massivində arı məhsullarının qablaşdırılması müəssisəsi fəlaiyyətə başlayıb. Bu münasibətlə keçirilən tədbirdə Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov bildirib ki, ölkədə arıçılığı inkişaf etdirmək məqsədilə son illər bir çox mühüm işlər həyata keçirilib.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun nəzdində Arıçılıq Mərkəzi yaradılıb, Azərbaycan Arıçılar Assosiasiyası təsis edilib. Hazırda damazlıq arıçılıq təcrübəsinin genişləndirilməsi, genofond arıxanaların yaradılması, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, sərgi-satış yarmarkalarının təşkili və sair istiqamətlərdə məqsədyönlü işlər görülür.

"Qubadlı Arıçıları" İctimai Birliyi də bir sıra tədbirlər həyata keçirib. Nəticədə qubadlıların saxladıqları arı ailələrinin sayı 5 min 200-ə çatdırılıb. Məhsuldarlıq yüksəlib, damazlıq-seleksiya işləri yaxşılaşdırılıb. Artıq məhsulların mərkəzləşdirilmiş qaydada qablaşdırılmasına başlanılıb.



Güzəştli kreditlər hesabına sakinlərin məskunlaşdığı yerlərdə yeni istehsal müəssisəsi yaradılıb.

Azərbaycan Prezidentinin sərəncamı ilə arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə görə 2018-ci il də daxil olmaqla beş il müddətində ildə on manat məbləğində subsidiya müəyyən edilib. Artıq subsidiyaların verilməsinə başlanılıb.

Tədbirdə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral da arıçılığın inkişafının vacib sahə olduğunu bildirib. Səfir vurğulayıb ki, iş adamlarına yaradılan münbit şərait ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha sıx birliyinə səbəb olub. "Dağ Arıçıları" İctimai Birliyinin sədri Yusif Quliyev yeni müəssisə barədə məlumat verib. Sonra tədbir iştirakçıları müəssisənin istehsal etdiyi arı məhsullarının sərgisi ilə tanış olublar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Ölkə fermerləri birləşir

*Əvvəli 1-ci səh.*

Azərbaycan bütün istiqamətlərdə olduğu kimi, aqrar sahədə də islahatlara açıqdır, yeniliklərin tətbiqində maraqlıdır. "Güclü maneələri, müdrik isə bütün yolu axıradək keçib gedir" - çinlilərin bu zərb məsəli Azərbaycanın islahatları inamla sonadək apara bilən ölkə olmasına dəlalət edir. Ölkəmizdə bütün sahələrdə tətbiq edilən yeniliklər bir zərgər dəqiqliyi ilə axıradək işlənilir.

İqtisad elmləri doktoru Müslüm İbrahimov Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" aqrar sahənin gələcəyinə və inkişafına xidmət edən fundamental bazanın qurulmasının əsas mərhələsidir.

Xəbər verildiyi kimi, bu yaxınlarda Sabirabad rayonunun Beşdəli və Yaxadəllək kəndlərində yaradılmış "Birlik" İstehsal Kooperativinin təqdimat mərasimi keçirilmişdir. Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri ilk gündən kooperativlərin yaradılmasını dəstəklədiyini qeyd etmiş, amma bu işin könüllülük əsasında görüldüyünü, heç kimin kooperativ yaratmağa məcbur edilmədiyini bildirmişdir. Qeyd etmişdir ki, Kənd Təsərrüfatı Nazirliyi yalnız kiçik pay torpağı olan vətəndaşların birləşərək kooperativ yaratmasını dəstəkləyir, təbliğ edir, onlara məsləhətlər verir.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə başlayan torpaq islahatı nəticəsində yüz minlərlə kəndli torpaq sahibi olmuşdur. Bu baxımdan kiçik pay torpaqlarının birləşdirilərək kooperativlərə çevrilməsi onların səbirsizliklə gözlədiyi yeniliklərdəndir. Elə buna görə də Sabirabaddan başlayan kooperativləşmə prosesinin digər rayonlarda davam etdirilməsi zərurətə çevrilir. Belə ki, təkbaşına pay torpaqlarında məşğul olan fermerlər dünyanın əksər ölkələrində olduğu kimi, ciddi problemlərlə üzləşir, yeni texnologiyaların, müasir biliklərin tətbiqində, istehsal olunan məhsulun satışında çətinliklərlə qarşılaşırlar.

Kooperativlərdə birləşməklə fermerlər rəqabət qabiliyyətli məhsul istehsal etmək üçün yeni imkanlar qazanır, xarici bazarlara çıxışı daha asan əldə edə bilirlər. Birləşə bilən, kooperativ yaradan fermerlərə dövlət daha çox inam göstərir, onları iri investisiya layihələrinə cəlb edir. Eyni zamanda fərdi qaydada fəaliyyət göstərən fermerə nisbətən kooperativlərdə məhsulun maya dəyəri xeyli ucuz başa gəlir, onlar daha uyğun şərtlərlə müasir texnika ala bilirlər.

Aqrar sahənin ekspertləri belə hesab edirlər ki, Sabirabadda fermerlərin yaratdığı kooperativ digər rayonlar üçün də uğurlu nümunəyə çevriləcək. 680 nəfəri özündə birləşdirən bu kooperativ həm də fermerlərin ideyalarını, imkanlarını, potensiallarını üzə çıxaracaq. Məlumat üçün bildirək ki, "Birlik" İstehsal Kooperativinin ümumi əkin sahəsi 850 hektardır. Üzvlərinin 380 nəfəri kişi, 300 nəfəri qadındır.

Dünya təcrübəsinə nəzər salsaq, orda da eyni tendensiyanı görə bilərik. Macarıstan, Bolqarıstan, Polşa, Yaponiya, ABŞ və Hollandiya kimi ölkələrin təcrübəsi göstərir ki, bu cür təsərrüfatlar üçün səmərəli işləmək daha asandır. Məhz buna görədir ki, belə ölkələrdə əhalinin ümumi sayının çox az hissəsi aqrar sektorda çalışsa da, onların istehsal etdikləri kənd təsərrüfatı məhsulları ölkələrini ərzaqla təmin etməklə yanaşı, böyük həcmdə ixrac imkanları da yaradır. Təsadüfi deyil ki, bu gün inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı kooperativləri fermerlərin kütləvi surətdə təşkilatlandıqları qurum sayılır. İsveçdə, Danimarkada, Norveçdə, Finlandiyada Niderlandda və Yaponiyada kooperativ hərəkatı, demək olar ki, fermerlərin hamısını əhatə edir. Fransada və Almaniyada bütün kənd təsərrüfatı müəssisələrinin 80 faizi kooperativlərdə birləşmişdir.

İnkişaf etmiş ölkələrin əksəriyyətində kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələrinin kəsişmə nöqtələrində yaranan çoxsaylı kooperativlər də mövcuddur. Fransa, İtaliya və Portuqaliyada şərab istehsalı və satışının təşkili kooperativlərdən keçir. Fermer təsərrüfatlarını istehsalat avadanlıqları ilə təchizatı ilə də kooperativlər məşğuldur. Kooperativlər həmçinin fermerləri mineral gübrələr və yem məhsulları ilə təmin edir. Hətta bir sıra ölkələrdə kənd təsərrüfatını toxumla təchiz edən kooperativlər var.

İlk baxışdan kiçik pay torpaqlarının birləşdirilərək kooperativlərin yaradılması fermeri rahatsız edə bilər ki, onun bu zaman torpağından məhrum olmaq ehtimalı yaranır. Lakin müasir dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatının müxtəlif istiqamətlərində kooperativlərin yaradılması nəinki kəndlini pay torpağından məhrum etmir, əksinə ona öz torpağında daha çox qazanmaq imkanı verir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# "Elektron ticarət" üzrə təlim yekunlaşıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "Azexport.az" portalının Beynəlxalq Ticarət Mərkəzi (ITC) ilə birgə "Elektron ticarət" və "İxrac prosedurları" mövzuları üzrə təşkil etdiyi təlim yekunlaşıb.

Özəl və dövlət qurumlarının 40-dan çox əməkdaşının iştirak etdiyi təlim interaktiv aparıldığı üçün müzakirələr fərqli qruplar üzrə 5 gün davam edib.

ITC-nin ekspertləri Mohamed Es Fih və Eldar Adilzadə təlim zamanı iştirakçılara informasiya sistemlərindən istifadə etməklə malların alqı-satqısı, xidmətlərin və işlərin görülməsi üzrə mərhələlər barədə ətraflı məlumat veriblər.

# Torpaq qanunvericiliyini pozan daş karxanalarının və süni balıq göllərinin fəaliyyəti dayandırılıb

Ölkəmizdə torpaq sahələrinin istifadəsiz saxlanmasına, özbaşına zəbtetmə hallarına qarşı mübarizə tədbirləri güclənir. Bu məqsədlə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən aparılan növbəti monitorinq daş karxanalarında olub.

Monitorinq zamanı məlum olub ki, müvafiq qurumlar tərəfindən ayrı-ayrı vaxtlarda karxana fəaliyyəti üçün qanunsuz olaraq torpaq sahələri ayrılıb. Karxanalar tərəfindən həmin torpaq sahələrinin məqsədli təyinatı özbaşına dəyişdirilərək mişar daşı istehsal olunur. Baş vermiş qanun pozuntusu hallarına görə inzibati protokollar yazılıb sənədlər hüquq mühafizə orqanlarına göndərilib. Qeyd edək ki, təkcə cari ildə 588 daş, qum-çınqıl karxanasından 256-nın torpaq qanunvericiliyinin tələblərini pozduqlarına görə fəaliyyətləri dayandırılmışdır.

Kənd təsərrüfatı təyinatlı torpaqlarda yaradılan süni balıq göllərinə gəldikdə, komitənin bu sahədə həyata keçirdiyi tədbirlər nəticəsində ümumilikdə 30 rayon üzrə 537 süni balıq gölü müəyyən edilib və onlar barəsində məlumat bankı yaradılıb. Bunların 131-i Salyanda, 83-ü Neftçalada, 32-si Biləsuvarda, 22-si Hacıqabulda, qalanı isə digər bölgələrdə aşkar edilib. Müəyyən olunub ki, süni balıq gölləri əsasən kənd təsərrüfatı təyinatlı pay torpaqlarında, dövlət və bələdiyyə mülkiyyətinə aid otlaq sahələrində, qış otlaqlarında qanunsuz olaraq yaradılıb.

Aparılan monitorinq zamanı qanun pozuntusu halları olan 121 gölün fəaliyyəti dayandırılıb, torpaq sahələri kənd təsərrüfatı dövriyyəsinə qaytarılıb. 269 göl barədə isə inzibati protokollar yazılıb, cinayət əməlinin əlamətləri aşkar olunan 25 göllə bağlı sənədlər Daxili İşlər Nazirliyinə təqdim edilib.

# "YARAT" növbəti səyyar sərgisini Şəmkirdə təqdim edib

Noyabrın 29-da "YARAT" Müasir İncəsənət Məkanının təşkilatçılığı ilə Şəmkir Gənclər Mərkəzində "Ulduzlu səmalar" adlı səyyar sərgi təqdim olunub. AZƏRTAC xəbər verir ki, sərgidə Azərbaycanın aparıcı müasir rəssamları Aida Mahmudova, Faiq Əhməd, Fərid Rəsulov və dünyaca məşhur Mikelancelo Pistolettonun əsərlərindən təşkil olunmuş ekspozisiya nümayiş etdirilib.

Əvvəlcə "YARAT" Müasir İncəsənət Məkanının ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Hökumə Kərimova və sərginin kuratoru Fərəh Ələkbərli yaradıcı gənclərə və ictimaiyyət nümayəndələrinə sərginin məqsədləri barəsində məlumat verib.

Bildirilib ki, yenilənmiş ənənələr, fərqli dəyərlər sərginin əsas leytmotivini təşkil edir. Ənənəvi sənətlərin qəbul olunmuş kanonlarını dəyişərək, sındıraraq, rəssamlar bununla təkcə yeni vizual sənət məhsulu deyil, həm də kontekst baxımından yeni mövzulara toxunublar. Bu mövzular əsasən ənənə, irs, qloballaşma, urbanizasiya, mədəni inqilab, sosial-ictimai aspektləri əks etdirir. Ekspozisiyada nümayiş olunan əsərlərin konseptləri sintez və eksperiment aparmaq marağından qaynaqlanır. Bununla belə, bu əsərlər tamaşaçını interaktivliyə dəvət edir.

Qeyd edilib ki, sərgidə əsəri nümayiş etdirilən Faiq Əhməd əsrlərboyu yaşayan xalçaçılıq sənətini yeni interpretasiyada təqdim edərək, xalçaçılıq estetikasını yenidən kəşf edərək onu müasir mədəniyyətə daxil edir. O, toxuculuq prosesini hissələrə ayırır, hazır xalçanın adi ikiölçülü, müstəvi görünüşünü dəyişib onu üçölçülü şəkildə təqdim edir.

Ənənə mövzusunu Fərid Rəsulovun "Şəbəkə" silsiləsindən olan "Düşən ulduz" və "Quş" adlı əsərləri davam etdirir. Rəssam monumental-dekorativ memarlıq sənət nümunəsini xalçanın əsas ornamentlərlə təqdim edir və bununla iki müxtəlif sahənin sintezini yaradır. Bu sintezin nəticəsi olaraq, sanki böyüdülmüş və havadan asılmış rəngli xalça ornamentləri formasında olan art obyektlər çıxış edir.

Aida Mahmudovanın "Məkanlar" silsiləsi rəssamın müşahidələrini əks etdirir. Bu müşahidə - araşdırmalar coğrafi yerləşmə, urbanizasiya, şəhərin ekspansiyası kimi məqamları əks etdirir. Quş uçuşu səviyyəsindən görünən mənzərələr landşaft, xarakter və əhvalına görə fərqlənir.

İtalyan rəssamı Mikelancelo Pistolettonun şah əsərlərindən biri olan, kartondan hazırlanmış "Labirint" əsəri, tamaşaçını cığırlı yollardan keçməsini təklif edir. Bunun metaforik mənası insanın müxtəlif həyat yolları keçməsi ilə daxili "mənini", kimliyini axtarmağa dəvət edir.

Sərginin açılışında çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov bu cür mədəni tədbirlərin qədim tarixə və zəngin mədəniyyətə malik Şəmkir şəhərində keçirilməsini yüksək qiymətləndirib və sərginin təşkilatçılarına minnətdarlığını ifadə edib.

Bildirilib ki, ümumbəşəri mədəni dəyərləri özündə əks etdirən, lakin müasir gənclərin yaradıcı baxışları ilə fərqli üslubda və formada işlənmiş bu cür əsərlər gənc nəslin yeni estetik həll və imkanları mənimsəməsi və onların zövqünün inkişaf etdirilməsi baxımından çox dəyərlidir.

Sonra ictimaiyyət nümayəndələri sərgidə təqdim olunan əsərlərlə daha yaxından tanış olublar.

# Müxtəlif cinayətlər törətdiklərinə görə axtarışda olan 18 şəxs tutulub

Azərbaycan Respublikasının və Rusiya Federasiyasının daxili işlər nazirləri arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən, cari il noyabrın 19-dan 25-dək hər iki ölkənin sərhədyanı rayonlarının ərazisində "Sərhəd" şərti adı altında birgə kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçirilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməliyyatın əsas məqsədi transmilli mütəşəkkil cinayətkar dəstələrin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində birgə kompleks təşkilati-praktiki tədbirlərin həyata keçirilməsi, həmçinin sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi olub.

Rusiya Federasiyası Dağıstan Respublikasının sərhədyanı bölgələrini və ölkəmizin Qusar, Quba, Xaçmaz, Zaqatala, Şəki, Balakən, Qəbələ, Qax və Oğuz rayonlarını əhatə edən tədbirlər nəticəsində müxtəlif cinayətlər törətdiklərinə görə axtarışda olan 18 şəxs, o cümlədən Rusiya Federasiyası tərəfindən axtarılan 12 nəfər tutulub, itkin düşmüş hesab olunan 4 nəfər tapılıb, mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə axtarılan 61 nəfər saxlanılıb. Qanunsuz saxlanılan 9 avtomat silah, 1 qumbaraatan, 5 tapança, 80 tüfəng, 31 ədəd sandıqça, 40 qumbara, 30 ədəd qumbara alışdırıcısı, 20 ədəd digər hərbi ləvazimat və sursat, müxtəlif çaplı 5642 patron aşkarlanaraq müvafiq qaydada götürülüb.

Əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqədar 5 fakt aşkarlanıb. Bundan başqa, tədbirlər zamanı ölkəmizin sərhədyanı rayonlarının ərazisində törədilən 5 müxtəlif cinayətin açılması da təmin edilib.

Ümumən, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, həmçinin hər iki dövlətin milli maraqlarına, qanunçuluq prinsiplərinə ciddi riayət olunmaqla gerçəkləşdirilən belə birgə kompleks əməliyyat-axtarış tədbirlərinin gələcəkdə də keçirilməsi planlaşdırılır.




İl sona çatır

Pambıqçılığın dirçəldilməsi torpaq mülkiyyətçilərinin, fermerlərin ürəyindən olmuşdur. Çünki gəlirli sahədir. Yaxın üç ilin nəticələri bunu aydın göstərir. El arasında belə bir məsəl var: "Allah deyir: səndən hərəkət, məndən bərəkət". Bu mənada xam məhsulun satınalma qiymətinin artırılması, daha dəqiq desək, bir kiloqramının subsidiya ilə birlikdə 75 qəpiyə çatdırılması pambıqçılığın inkişafına əlavə stimul vermişdir.



# Emal müəssisəsi pambıqçıların yanında olanda...

## "MKT-Neftçala" istehsalçıların ümidlərini doğruldur







"MKT-İK" şirkəti sovetlər birliyində fəaliyyət göstərmiş pambıqtəmizləmə zavodlarının bazasında yaradılmışdır. Onlardan biri "MKT-Neftçala" filialıdır. Pambıq istehsalı sonralar kəskin şəkildə aşağı düşdüyünə görə həmin filialların, o cümlədən Neftçaladakı zavodun da fəaliyyəti dayanmışdı. 2002-ci ildə bağlanan müəssisənin fəaliyyətsizliyi üzündən tikililər, avadanlıqlar dağılmağa başlamışdı. Buna baxmayaraq, zavoda uzun müddət rəhbərlik edən Bahəddin Leysanov vaxt tapan kimi buraya baş çəkir, bütün vasitələrlə zavodun, onun avadanlıqlarının, texnikalarının sökülüb dağılmasının qarşısını almağa çalışırdı.

Nəhayət, "MKT-Neftçala" filialının fəaliyyətinin bərpası ilə bağlı qərar qəbul olundu. B.Leysanov yenidən müəssisəyə rəhbər təyin edildi. Lakin hər işə təzədən başlamaq lazım gəlirdi. İlk növbədə Kür çayından buraya 7 kilometrlik su xətti çəkildi, yola asfalt döşəndi. Müəssisədəki sexlər, avadanlıqlar, anbarlar, pambıq tayalarının yerləri, qapantərəzi, laboratoriya, idarə binası və digər tikililər əsaslı şəkildə yenidən quruldu. Müəssisənin baxımsızlıqdan qurumuş bağçasında yanmış ağacların, gül-çiçək kollarının yerinə yeniləri əkildi. Bir sözlə, müəssisə əvvəlkindən də abad vəziyyətə gətirildi. Bunlarla yanaşı, şirkət tərəfindən müəssisəyə çoxlu sayda, müxtəlif adda kənd təsərrüfatı texnikası, maşın-mexanizm verildi. Yaxşı təşkilatçılıq qabiliyyətinə malik olan, sözü ilə əməli bir olan B.Leysanov pambıqçılıqdan, texnikadan yaxşı başı çıxan kadrları müəssisəyə cəlb etdi.

Bunları görən torpaq mülkiyyətçiləri, fermerlər bu gün də "MKT-Neftçala" ilə müqavilə bağlamağa üstünlük verirlər. Bir məsələni də qeyd etmək lazımdır ki, müəssisədə intensiv əkinçilik metodundan istifadə edilir. Əkin üçün daha münbit, məhsuldar torpaqlar seçilir. Bu məqsədlə filialın aqronomları pambıq əkiləcək sahələrə baxış keçirir, sonra müqavilə bağlanılır. Qarşılıqlı etimad, işbirliyi uğurlar üçün zəmin yaradır.

Filial keçən ilin sonu və bu ilin əvvəlində 564 nəfər torpaq mülkiyyətçisi və fermerlə 2 min 342,5 hektarda pambıq yetişdirmək üçün müqavilə bağlamışdır. Pambıq isə çox zəhmət tələb edən bitkidir. Gərək hər gün yanında olasan, lazımi aqrotexniki tədbirləri vaxtında həyata keçirəsən. Belə olan halda torpaq da, bitki də kəndlini üzüqara etmir. "MKT-Neftçala" filialının mütəxəssisləri bu amili əsas götürərək şum aparıldığı vaxtdan pambıq yetişənədək müəssisə ilə müqavilə bağlayanların yanında olurlar. Təkcə bu mövsüm becərmə ilə əlaqədar pambıqçılara kifayət qədər çiyid toxumu, 466 ton azot, 202 ton amafos, sovka və digər ziyanvericilərə qarşı mübarizə aparmaq üçün 160 min 300 manatlıq müxtəlif preparatlar verilmişdir. 15 adda 274 texnika əkinçilərin ixtiyarında olmuşdur. Onlardan 9-u Amerika istehsalı və hər birinin dəyəri 600 min manat civarında olan "Conder" markalı pambıqyığan maşınlarıdır. Çəkilən zəhmət, göstərilən diqqət sayəsində indiyədək 6 min 700 tona yaxın pambıq yığılıb. Hər hektarın məhsuldarlığı 28 sentnerdən çoxdur. Amma yığım davam etdiyindən bu rəqəmin artacağı şübhəsizdir. Tədarük edilən pambığın 5 min 981 tonu birinci, 756 tonu ikinci və 7 tonu üçüncü növdür. Tayalara vurulmuş pambığın lazımi rejimdə saxlanmasına da xüsusi fikir verilir.

Emal işi də qaydasındadır. Müəssisənin baş mühəndisi Mirbəşir Ağayev bu il bol məhsul yetişdirildiyini və onun filial işçiləri tərəfindən emal edildiyini bildirir. Deyir ki, pambıq xüsusi borularla qurutma aqreqatına, oradan təmizləyici sexə daxil olur. Burada xam pambıq tam şəkildə təmizlənərək ayırıcı sexə ötürülür. Orada avadanlıqlar vasitəsilə pambıq çiyiddən ayrılır və presləmə sexinə göndərilir. İki növbənin işlədiyi bu sexdə hər gün 100-120 kip bağlanır. Hər kipin çəkisi 205-215 kiloqram arasındadır. Mahlıc böyük təzyiq altında sıxıldıqdan sonra məftillərlə bağlanılaraq konveyerlə bayıra göndərilir. Növbəti mərhələdə hər biri bez parça ilə səliqəli şəkildə örtülərək kənarları tikilir. Sonra çəkilib nömrələnərək anbara ötürülür. Bütün bu proseslərin icrasında qurutma sexinin işçilərindən Yeganə Qənbərova, Mirabas Ağayev, presləyici sexdən Tahir Mazanov, Qənirə Quliyeva, Ruhiyyə Quliyeva, təmir sexindən Rafiq Hüseynov, Fədail Canıyev, Ramil Ağayev və başqalarının əməyi daha çoxdur.

Müəssisədə olarkən öyrəndik ki, hələlik 1203 ton mahlıc, 1367 ton çiyid istehsal olunub. Mahlıc çıxımı 40,8 faizdir. Bu, 1 ton xam pambıqdan 480 kiloqram mahlıc deməkdir. Mahlıc "MKT-İK"-nın xətti ilə satılır. Çiyid isə emal üçün Şirvan şəhərindəki Yağ-Piy Kombinatına verilir. İki il bundan öncə fəaliyyətini bərpa etmiş "MKT-Neftçala" filialında hazırda 200-ə qədər işçi çalışır.



Söz ki işçilərdən düşdü, qeyd edək ki, Neftçalada öz işini yaxşı bilən pambıqçılar çoxdur. Onlardan biri də "MKT-Neftçala" filialı ilə müqavilə bağlayan Əlihüseyn Hacıyevdir. O, Neftçala rayonunun Boyat kəndində doğulub boya-başa çatıb. Ağlı kəsəndən əkinçiliklə, o cümlədən pambıq əkib-becərməklə məşğul olub. Sovetlər birliyi zamanında kəndlərindəki "1 May" kolxozunda çalışıb. İşləyə-işləyə qiyabi yolla Gəncədəki Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini bitirib. Briqadir köməkçisi, briqadir, aqronom, baş aqronom, kolxoz sədri işləyib. SSRİ süquta uğrayandan, kolxoz və sovxozlar ləğv ediləndən sonra pay torpağını əkib-becərib. Bələdiyyə torpaqlarından icarəyə götürüb, əkin sahələrini getdikcə genişləndirib.

Keçən il sentyabr ayının 24-də dövlət başçısı İlham Əliyev rayona səfəri zamanı Ə.Hacıyevin pambıq tarlalarında olmuş, onunla və tarlasında çalışan pambıqçı qızlarla görüşmüşdür. Ə.Hacıyev bu görüşdə daha yüksək nəticələr əldə etməyə söz vermişdi. O, vədinə əməl edərək keçən il hər hektardan 42 sentner məhsul götürməyə nail oldu. Nəticədə özü və başçılıq etdiyi təsərrüfatın üzvləri yaxşı qazanc götürdülər. Prezident Ə.Hacıyevi 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif etdi.

Bu həm də böyük etimad demək idi. Odur ki, keçən ilin sonunda bu il üçün 45 hektar sahədə pambıq əkməyi nəzərdə tutan Ə.Hacıyev yenidən "MKT-Neftçala" filialı ilə müqavilə bağladı. Hələ qış aylarında torpağı əkinə hazırladı. Yazda sahələrə toxum səpdi. Bitki torpaqdan baş qaldıran kimi kollektivinin üzvləri ilə bütün aqrotexniki tədbirləri vaxtında həyata keçirdi. Kətmənləmə, kultivasiya, suvarma, ziyanvericilərlə mübarizə, ucvurma işləri tələb olunduğu səviyyədə yerinə yetirildi. Sentyabr ayının birinci ongünlüyündə yığıma başladılar. Bir məsələni də vurğulamaq lazımdır ki, fermer əllə yığıma daha çox üstünlük verir. Deyir ki, pambığı onlar becərib, qoy onlar da yığıb pul qazansınlar. Hələlik məhsuldarlıq 69,6 sentnerdir. Bu, rayon üzrə rekord göstəricidir. Filial üzrə digər fermerlər - Ağamirzə Mustafayev, Qara Abbasov, İmadəddin Dadaşov da yüksək - hər hektardan 37-48 sentner məhsul əldə etmişlər.

Ə.Hacıyev, eyni zamanda nümunəvi ailə başçısı, xeyirxah insan, peşəsini sevən hami tərbiyəçidir. Boyat kənd inzibati ərazi nümayəndəliyinin Dördlər kənd sakini 21 yaşlı Rauf Cəfərovu himayə götürüb. Rauf Gəncə Kənd Təsərrüfatı Akademiyasının ikinci kursunda qiyabi yolla təhsil alır. Ə.Hacıyevin uğurları onun pambığa marağını artırmışdır. R.Cəfərov ailələrinə məxsus 7 hektar pay torpaqda pambıq əkmək qərarına gəlib.

2018-ci il başa çatmaq üzrədir. "MKT-Neftçala" filialının kollektivi, habelə bu müəssisə ilə müqavilə bağlayan sahibkarlar artıq gələn ilin qayğıları ilə yaşayırlar. Hələlik 300 nəfərdən çox mülkiyyətçi gələn il pambıq əkmək üçün müəssisə ilə müqavilə bağlamışdır. Bu isə dövlətin qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirdiyi aqrar siyasətin əməli nəticəsidir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Kümçülüyün yeni inkişaf dövrü başlayır

## Azərbaycan özünü ipəkqurdu toxumu ilə tam təmin edə biləcək



*Əvvəli 1-ci səh.*





Stansiyanın direktoru Əkrəm Fətəliyev məlumat verdi ki, bu müəssisə 1973-cü ildən fəaliyyət göstərir. O dövrdən burada elit və super elit ipəkqurdu toxumlarının hazırlanması həyata keçirilib. Həmin illərdə respublikanın 7 ədəd barama toxumu zavodu olub. Mövcud zavodlar məhz bu stansiyada istehsal olunan elit toxumla təmin ediliblər. Onlar da ondan hibrid toxum hazırlayaraq respublikanın ipəkqurdu toxumu ilə təminatını həyata keçiriblər.

Ə.Fətəliyev deyir ki, o zamanlarda Azərbaycanın xaricdən ipəkqurdu toxumu almasına ehtiyac olmayıb. Lakin müəssisə 1997-ci ildə fəaliyyətini dayandırıb. Səbəb isə ölkədə yaşanan iqtisadi böhran idi. Nə qədər çətin olsa da, 2002-ci ildə Şəki İpək Kombinatı ipəkqurdu toxumları ilə təminat məsələsini öz üzərinə götürüb. Lakin onların da xaricdən toxum alıb gətirmələrinə baxmayaraq, nəzərdə tutulan hədəfə çatmaqda problemlər yaşanıb.

Bir sıra sahələr kimi, dövlət dəstəyi baramaçılıqda da intibah dövrünün yaşanması üçün üfüqlər açdı. 2016-cı ildən bu sahənin inkişaf etdirilməsi dövlət başçısının xüsusi diqqətində olduqdan sonra vəziyyət tamamilə dəyişdi. Beləliklə, ölkəmizdə ipəkçiliyin növbəti inkişaf dövrü başlandı. Elə həmin il respublikamıza 1500 qutu ipəkqurdu toxumu gətirildi. Onun bir hissəsi İran İslam Respublikasından, digər hissəsi isə Çin Xalq Respublikasından idxal olundu. Onların da hamısının inkubasiyası Qax Damazlıq İpəkçilik Stansiyasında həyata keçirildi. Burada dirildilən ipəkqurdu toxumları sonradan bölgü üzrə rayonlara paylandı.

2017-ci ildə isə 6 min qutudan 245 ton yaş barama istehsal edildi. Məhz elə həmin il ölkə Prezidenti İlham Əliyev Qax Damazlıq İpəkçilik Stansiyasının yenidən qurulması ilə bağlı sərəncam verdi. Bu məqsədlə 4,5 milyon manat pul vəsaiti ayrıldı. Cari ilin oktyabr ayında stansiyanın açılışı oldu. Burada ipəkqurdu toxumlarının hazırlanması üçün lazımi şərait var. Quraşdırılan müasir texnologiyalar isə qarşıya qoyulan məqsədə çatmaq istiqamətində hərtərəfli təminatlar yaradır.

Hazırda stansiyada xaricdən gətirilmiş "Elit" toxum var. Bu gün onun hazırlanması işləri gedir. Noyabrın sonunda o, soyuducuya qışlamaya qoyulur. 2019-cu ildə 6-7 min ton qutu aralığında toxum hazır olacaq. Keçən il ölkəyə 13 min qutu ipəkqurdu toxumu gətirilməsini nəzərə alsaq, o zaman mövcud potensialın tələbatın təxminən 50 faizini təmin edəcəyi qənaəti yaranır. Hazırkı templə 2021-ci ildə stansiya respublikanın ipəkqurdu toxumu tələbatını tamamilə təmin edə biləcək. Ümumiyyətlə isə stansiyanın istehsal gücü 40 min qutuya müəyyənləşib. Bu da 1 ton 200 kiloqram ipəkqurdu toxumu deməkdir. Həmin toxumdan da 2 min ton yaş barama istehsalı mümkündür. Gələcəkdə istehsal həcminin daha da artırılması nəzərdə tutularsa, o zaman əlavə zavodun tikilməsinə ehtiyac yaranacaq.

Nəzərdə tutulan hədəfə çatmaq isə yalnız mərhələlərlə aparılan iş şəraitində mümkündür. Bu zaman mütləq yem bazasının yaradılmasına diqqət yetirilməlidir. Hazırda həmin istiqamətdə ardıcıl tədbirlər görülür. Bu məqsədə nail olunması üçün həm ÇXR-dən idxal olunan, həm də yerli şəraitdə yetişdirilən tut tingləri sahələrə köçürülür. Qeyd olunan işlər paralel aparıldığı üçün qarşıdakı hədəfə çatmaq şübhə yaratmır. Hədəf isə 2025-ci ildə respublikamızda 6 min ton yaş barama istehsalına nail olmaqdır.

Qax Damazlıq-İpəkçilik Stansiyası fəaliyyətini yalnız toxum hazırlanması və onun realizəsi ilə məhdudlaşdırmır. Müəssisənin təcrübəli mütəxəssisləri vaxtaşırı rayonlarda olaraq kümdarlarla görüşür. Qeyd edək ki, 2018-ci ildə ölkəmizdə 3200 nəfər kümçülüklə məşğul olub. İl ərzində respublika 7 region üzrə bölünərək hər birində ipəkqurdu bəsləyən bütün rayonların kümdarları cəlb olunaraq onlara seminarlar keçirilib. Seminarlarda kümxanaların mövsümə hazırlanması, ipəkqurdunun yemləmə qaydası, saxlanan məkanın temperaturu, xəstəliklərdən qorunma qaydaları izah olunub.

Qeyd edək ki, hazırda stansiyada 11 nəfər çalışır. Layihə tam gücünə çatdıqda isə bu həcm 60 nəfər təşkil edəcək. Mösümi işlər zamanı isə əlavə götürülən müvəqqəti işçilərlə birlikdə burada çalışanların sayı təxminən 150 nəfər təşkil edəcək.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Reallaşan layihələr



Respublikamızın digər şəhər və rayonları kimi Goranboyun da siması gündən-günə dəyişir. İndi rayon ərazisinə yolu düşən hər kəs burada aparılan abadlıq və quruculuq işlərinin şahidi olur.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyevlə söhbətimiz də bu barədə oldu. İcra başçısı dedi ki, istər kənd təsərrüfatında, istərsə də digər sahələrdə qazanılan uğurlar imkan verir ki, rayonda sosial infrastrukturu yeniləyək. Hazırda xırda abadlıq işləri ilə yanaşı, bir neçə vacib obyektdə tikinti işləri sürətlə aparılır. Məsələn, dövlət başçısının müvafiq sərəncamları ilə ayrılmış vəsait hesabına rayon mərkəzində mərkəzi rayon xəstəxanası, Olimpiya idman kompleksi inşa edirlər. Xalçaçılıq müəssisəsində, uşaq və ailələrə dəstək mərkəzində işlər yekunlaşmaq üzrədir.

2,8 hektar ərazisi olan Olimpiya idman kompleksinin tikintisində 70 nəfərdən çox işçi çalışır. Gələn il istifadəyə verilməsi nəzərdə tutulan bu kompleksi "TAN" inşaat şirkəti aparır. İnşaat işlərində yüksək ixtisaslı mütəxəssislər çalışırlar. Havaların soyuq keçməsinə baxmayaraq iş dayanmır. İnşaat materiallarının təminatında da ləngimələr yoxdur. Obyektdə çalışan bütün işçilər gündə bir dəfə pulsuz yeməklə təmin edilirlər. Onların tikinti meydançasına rahat gəlib getmələri üçün nəqliyyat vasitələri də ayrılıb.

Kompleksdə gənclərin bütün növ olimpiya oyunları ilə məşğul olmaları üçün hər cür şərait yaradılır. Həndbol, basketbol, voleybol meydançaları, güləş, ağır atletika, boks, şahmat zalları, 3 mərtəbəli hotel, hamam, duş, masaj otaqları olacaq, tennis klubu, stadion fəaliyyət göstərəcək. Üzgüçülük hovuzunda üzməyi öyrənənlər üçün təlimlər aparılacaq, yarışları seyr etmək üçün 110 nəfərlik oturacaqlar quraşdırılacaq.

İnşası başa çatdırılmış və hazırda ətrafında son tamamlama işləri görülən xalçaçılıq müəssisəsinin bu günlərdə təhvil verilməsi nəzərdə tutulur. Müəssisədə olarkən "El-seym" inşaat şirkətinin iş icraçısı Zəkəriyyə Şərbətov dedi ki, hazırda müəssisənin həyətində yaşıllaşdırma işləri görülür. Bu ay işləri tamamlayıb təhvil verəcəyik. Artıq müəssisənin daxilində dəzgahların quraşdırılmasına başlanılıb. Burada konfrans zalı, soyunub-geyinmə otaqları, mətbəx-yeməkxana da var. Sanitar qovşaqlarda bütün işlər başa çatdırılmış, ayrıca elektrik transformatoru quraşdırılmışdır. Mərkəzləşdirilmiş istilik sistemində də işlər başa çatdırılmışdır. 100 nəfərin çalışacağı müəssisədə işçilərin toxuculuq sənətinə yiyələnmələri üçün də təşkilati tədbirlər görülmüş, onlar 3 aylıq kursları başa vurmuşlar.

Mərkəzi rayon xəstəxanasının tikintisi də sürətlə aparılır. Obyektin gələn il istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Əvvəlki mərkəzi xəstəxanadan fərqli olaraq terapiya, travmatologiya, doğum, dializ, cərrahiyyə, təcili tibbi yardım şöbələri yeni binada olacaq.




Uşaq və ailələrə dəstək mərkəzinin tikintisi də başa çatır. Burada keçiriləcək təlimlər, eləcə də fiziki qüsurlu uşaqların reabilitasiyası üçün hər cür şərait yaradılmışdır. Yeni il qabağı bu obyektin açılışı da nəzərdə tutulmuşdur.

Hazırda inşası davam edən obyektlər diqqətdə saxlanılır, rayon rəhbərliyi tərəfindən lazım gəldikdə kömək göstərilir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Xalq rəssamı Tahir Salahovun 90 illik yubileyi qeyd edilib

29 noyabr müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi, Azərbaycan və Rusiyanın xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, Avropa Elm və İncəsənət Akademiyasının həqiqi üzvü, Dövlət mükafatı laureatı Tahir Salahovun doğum günüdür.

Bu münasibətlə noyabrın 29-da "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda yerləşən Tahir Salahovun ev-muzeyində "Tahir Salahov 90" adlı tədbir təşkil edilib.





AZƏRTAC xəbər verir ki, tədbirdə muzeyin direktoru Səadət Mirzəyeva çıxış edərək ev-muzeyin yaradılmasından və qarşıda duran vəzifələrdən danışıb. Bildirib ki, ev-muzeyində Tahir Salahovun Azərbaycan dövlətinə bağışladığı rəsm əsərlərindən və şəxsi arxivindən ibarət kolleksiya nümayiş olunub. Muzeyin kolleksiyasında 800-ə yaxın eksponat var. Altı il əvvəl Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən yaradılmış Tahir Salahovun ev-muzeyi öz qapılarını ictimaiyyət üçün açaraq İçərişəhərin əsas incəsənət və mədəniyyət mərkəzlərindən birinə çevrilib. Bir sıra ölkələrdən turistlər məhz dahi sənətkarın ev-muzeyini ziyarət etmək üçün İçərişəhərə gəlir.



Belə tədbirlərin ənənəvi olaraq hər il keçirildiyini bildirən Səadət Mirzəyeva deyib ki, Tahir Salahov milli sənət xəzinəsinin qızıl fonduna daxil olan əsərləri ilə Azərbaycan mədəniyyəti tarixində yeni parlaq səhifə açıb. Onun dünyanın mötəbər muzeylərində və qalereyalarında saxlanılan, müxtəlif sərgilərdə nümayiş etdirilən tabloları çoxəsrlik ənənələrə malik Azərbaycan incəsənətinin şöhrətini yüksəklərə qaldırıb.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, xalq rəssamı Fuad Salayev sənətkarın ömür yolundan, yaratdığı dəyərli sənət incilərindən söz açıb. Qeyd edib ki, T.Salahovun həyat və yaradıcılığı doğma Azərbaycana və mədəniyyətinə təmənnasız xidmətindən ibarət olub. "O, böyük istedadı ilə Azərbaycan xalqının milli adət-ənənələrinin inkişafına xidmət etməklə yanaşı, dünya rəssamlıq prosesinə də müsbət təsir göstərib. Onunla hər bir azərbaycanlı fəxr edir. Dünya rəssamlarının arasında öz dəstxəti, öz nüfuzu ilə seçilən belə bir sənətkarın millətimizin nümayəndəsi olması, sözün əsl mənasında, xoşbəxtlikdir. Uzun müddət Rusiyada yaşamasına baxmayaraq, o, doğma vətəninə bağlı insandır. Özünəməxsus yaradıcılıq üslubuna malik rəssamın əsərlərinin çoxu Azərbaycan mövzusundadır. Rəssam sənəti şəkil çəkməklə deyil, düşüncəylədi. Tahir Salahovun düşüncələri onun əsərləridir", - deyə xalq rəssamı qeyd edib.

Tahir Salahovun həyat və yaradıcılığına həsr olunan "Yaddaş" sənədli filminin rejissoru Ziya Şıxlinski, rəssamı Taryer Bəşirov və başqaları çıxış edərək görkəmli fırça ustasının zəngin yaradıcılığından söhbət açıblar.

Qeyd edilib ki, dünya mədəniyyətinin canlı əfsanəsi olan T.Salahov cavan ruha sahibdir və onun yorulmaq bilməyən əlləri bu gün də yeni-yeni şah əsərlər yaratmaqdadır. Çox məhsuldar yaradıcılıq yolu keçən sənətkarın son illərə aid əsərlərindən danışarkən Azərbaycan incəsənətinin şedevrləri sayıla bilən ulu öndər "Heydər Əliyevin portreti"ni, "Mstislav Rostropoviçin portreti"ni, "Odlar yurdu" triptixini, "Yazıçı Anarın portreti"ni və daha neçə-neçə peyzaj və natürmortlarını qeyd etmək lazımdır. Dünya miqyasında aparıcı portret ustası olan T.Salahov əsərlərində insanı bəşəriyyətin ən ali varlığı kimi canlandırır. Bu xüsusiyyətlər yuxarıda qeyd edilən portretlərə də xasdır.

Diqqətə çatdırılıb ki, yubiley ərəfəsində Prezident İlham Əliyev Azərbaycan təsviri sənətinin inkişafında xüsusi xidmətlərinə görə Tahir Salahovu 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edib. Həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva, Rusiya Prezidenti Vladimir Putin yubilyarı təbrik edərək onun yaradıcılığını yüksək qiymətləndiriblər.

Tədbir konsert proqramı ilə davam edib.

# Suriyada atəşkəsin pozulması narahatlıq doğurur

## Astanada münaqişənin tərəfləri ortaq məxrəcə gələ bilmədi

Suriyada atəşin dayandırılması rejiminə zəmanət verən İran, Rusiya və Türkiyə İdlib əyalətində atəşkəsin pozulması hallarından narahatdır və sabitliyin təmin olunması istiqamətində səyləri fəallaşdırmaq əzmindədirlər. Astana prosesi çərçivəsində Suriya münaqişəsinin tənzimlənməsinə dair dünən başa çatmış 11-ci beynəlxalq görüşün yekunu bundan ibarətdir.

Qazaxıstanın paytaxtında bir araya gəlmiş qarant dövlətlərin və münaqişə tərəflərinin nümayəndələri qəbul etdikləri yekun bəyanatda ilk növbədə Suriyanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə sadiq qaldıqlarını, həmçinin İŞİD, "Cəbhə ən-Nüsrə" və digər terrorçu qruplaşmalarla mübarizəni davam etdirmək əzmində olduqlarını nümayiş etdirdilər. Qarant ölkələr Suriyada vəziyyəti qiymətləndirərkən üçtərəfli əməkdaşlığın və qonşu ölkələrin təhlükəsizliyini hədəfə almış separatçı qruplara münasibətdə vahid yanaşmanın vacibliyini vurğuladı.

Yekun bəyanatda qeyd olunur ki, görüş iştirakçıları İdlibdə gərginliyin azaldılması zonasında vəziyyətin sabitləşdirilməsi üzrə bu il sentyabrın 17-də imzalanmış memorandumu tamamilə reallaşdırmaq əzmində olduqlarını bir daha təsdiqlədilər. Belə bir məqam nəzərə çarpdırıldı ki, İdlibdə atəşkəsin mütəmadi olaraq pozulması narahatlıq doğurur və ona görə də atəşkəs rejiminə zəmanət verən ölkələr əyalətdə sabitliyi bərpa etmək üçün İran-Rusiya-Türkiyə birgə əlaqələndirmə mərkəzinin işini fəallaşdırmaq üçün səylərini intensivləşdirəcək.

11-ci Astana görüşündə qarant ölkələr və münaqişənin tərəfləri - Suriya hökuməti və müxalifət əsasən ölkədə atəşkəs rejiminə riayət edilməsinin vəziyyətini, Suriya Konstitusiya Komitəsinin formalaşdırılması prosesini, eləcə də əsirlərin dəyişdirilməsi məsələsini müzakirə etmişdir. Təəssüf ki, bu üç məsələnin heç birində nəzərəçarpan irəliləyiş əldə etmək mümkün olmamışdır.

Məlum olduğu kimi, İdlib əyalətində atəşkəs rejiminin zaman-zaman pozulması halları müşahidə olunur. Sabitliyin pozulmasında Bəşşar Əsəd rejimi müxalifəti, öz növbəsində silahlı müxalifət hökumət qoşunlarını ittiham edir. Lakin atəşkəsi kimin pozmasından asılı olmayaraq, ölkədə sülhün bərqərar edilməsi prosesi sarsılır, dinc əhali zərər çəkir. Ona görə də qarant ölkələrin yaranmış vəziyyətdən dolayı narahatlığı başadüşüləndir. Odur ki, üç ölkənin birgə səylərini fəallaşdırması və atəşkəsi pozan qrupları ciddi xəbərdar etməsi yerinə düşür.

Qeyd etmək lazımdır ki, hazırkı mərhələdə İran, Rusiya və Türkiyə atəşkəs rejiminin tamamilə bərpa edilməsi məsələsinə xüsusi diqqət yetirir. Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin 11-ci Astana görüşünün başladığı gün telefon danışığı zamanı bu məsələni geniş müzakirə etmiş və lazımi tədbirlər görülməsinin zəruriliyini vurğulamışlar.

150 nəfərlik Suriya Konstitusiya Komitəsinin təşkili münaqişənin nizama salınması istiqamətində prioritet məsələ kimi gündəlikdədir. Komitəyə son 50 nəfəri seçmək problem olaraq qalır. On aydır davam edən səylər komitənin tərkibini tamamilə formalaşdırmağa gətirib çıxarmamışdır. Bununla belə, prosesdə durğunluğun aradan qaldırılması naminə addımlar atılır. 11-ci Astana görüşündə iştirak etmiş BMT baş katibinin Suriya üzrə xüsusi elçisi Staffan de Mistura bəyan etmişdir ki, cari ilin sonunadək komitəni formalaşdırmaq niyyətindədir.

Üçüncü məsələ - əsirlərin dəyişdirilməsi də Astanada geniş müzakirə edilmişdir. Məlum olduğu kimi, hökumətlə müxalifət arasında 10 nəfər 10 nəfərə formulu ilə ilk əsir dəyişdirilməsi bu ayın 24-də baş tutmuşdur. Bu istiqamətdə növbəti addımın yaxın vaxtlarda atılacağı gözlənilir. Rusiya Prezidentinin Suriya üzrə xüsusi nümayəndəsi Aleksandr Lavrentyev srağagün məlumat vermişdir ki, ikinci əsir dəyişdirilməsi siyahısına hər tərəfdən 50-60 nəfər daxil edilə bilər.

Qazaxıstan paytaxtında qarant ölkələrin və münaqişə tərəflərinin növbəti görüşü konkret nəticələrlə yadda qalmasa da, danışıqların iştirakçıları dialoqun davam etməsinin özünü müsbət qiymətləndirirlər. Astanada növbəti görüş gələn ilin fevralına planlaşdırılmışdır. Ümid etmək olar ki, Suriya münaqişəsinin həllində maraqlı olan tərəflər 12-ci görüşədək mövqelərini yaxınlaşdırıb ölkədə tənzimləmə prosesinin start götürməsinə şərait yaradacaqlar.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Çin Mərkəzi Televiziyasında Azərbaycanla bağlı silsilə verilişlər yayımlanıb




Çin Mərkəzi Televiziyasının 4-cü kanalının (CCTV4) "Bir kəmər, bir yol" mövzusuna həsr olunan proqramının növbəti 8 buraxılışında Azərbaycandan bəhs olunub. AZƏRTAC xəbər verir ki, verilişlərdə Azərbaycanın tarixi, coğrafi mövqeyi, müasir inkişafı, iqtisadi imkanları, turizm potensialı, mətbəxindən söz açılıb, iki ölkə arasında münasibətlərə toxunulub.

Qeyd olunur ki, Azərbaycan Cənubi Qafqaz regionunda, Xəzər dənizinin qərb sahilində yerləşməklə Şərq ilə Avropanı birləşdirir. Azərbaycanın coğrafi mövqeyinə baxmaqla onun nə qədər vacib olduğunu anlamaq olar. Bir çox sivilizasiyaların, mədəniyyətlərin, dinlərin qovuşduğu məkan olan Azərbaycan əsrlər boyu İpək yolu üzərində Şərq ilə Qərb arasında ticarətdə vacib rol oynayıb.

Bildirilir ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanın inkişafında yeni dövr başlayıb. Azərbaycan gənc ölkə olmasına baxmayaraq, çox vacib beynəlxalq iqtisadi qovşağa çevrilə bilib. Müstəqil dövlət kimi xarici ölkələrlə, o cümlədən Çin Xalq Respublikası ilə diplomatik əlaqələr yaradılıb.

Verilişin aparıcısı paytaxt Bakıda aparılan tikinti və inkişaf proseslərindən söz açaraq qeyd edir ki, "Küləklər şəhəri"ndə tarixi və müasir memarlıq nümunələrini yan-yana görmək mümkündür.

Bildirilir ki, İçərişəhər tarixi İpək yolu üzərindəki ən çox yaşı olan və yaxşı mühafizə olunan yaşayış məntəqələrindən, "Alov qüllələri" isə müasir Bakının rəmzlərindən biridir. Bundan başqa, turistlərin böyük maraq göstərdikləri "Atəşgah" məbədindən, Yanardağdan da bəhs olunub.

Azərbaycanın təbii gözəlliklərindən də bəhs olunan verilişdə palçıq vulkanları haqqında söhbət açılıb. Bildirilib ki, Azərbaycan bu növ vulkanların sayına görə dünyada birincidir. Tamaşaçılara təbii şəfaverici xüsusiyyəti olan Naftalan neftinin bir çox xəstəliklərin müalicəsində istifadə olunması barədə məlumat verilib.

CCTV4-ün əməkdaşları Azərbaycanın bir neçə bölgəsində, o cümlədən Naxçıvanda "Duzdağ" sanatoriyasında, Əlincə qalasında çəkilişlər aparıb, Şəkidə milli mətbəximizdə xüsusi yeri olan piti, Tovuzda isə şərabçılıq ənənələri ilə tanış olublar.

Kanal tamaşaçılarına Azərbaycanın zəngin mədəni irsi, o cümlədən xalq yaradıcılığı, adət-ənənələri barədə məlumat verib. Bundan başqa, Azərbaycanın iqtisadi inkişafından, neft strategiyasından, qeyri-neft sektorunun inkişafına olan diqqətdən, iki ölkə arasında iqtisadi-ticari əlaqələrdən, yüksəkkeyfiyyətli Azərbaycan məhsullarının Çinə ixrac imkanlarından söz açılıb.

CCTV4 kanalı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Çinin Azərbaycandakı səfiri Vey Cinxua ilə ikitərəfli əlaqələrimizə dair müsahibələri də yayımlayıb.

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

### Salome Zurabişvili Gürcüstanın Prezidenti seçildi



Gürcüstanda keçirilmiş prezident seçkilərində hakim "Gürcü arzusu" partiyasının dəstəklədiyi müstəqil namizəd Salome Zurabişvili qalib gəlmişdir. Bu barədə Mərkəzi Seçki Komissiyası məlumat verir.

Bütün səslər hesablandıqdan sonra Zurabişvili 59,52 faiz səs, müxalifətçi Qriqol Vaşadze 40,48 faiz səs toplamışdır. Gürcüstanın seçilmiş Prezidentinin andiçmə mərasimi dekabrın 16-da keçiriləcək.

Bu arada ölkənin eks-prezidenti Mixail Saakaşvili "Rustavi-2" telekanalına müsahibəsində seçkilərin nəticələrini tanımadığını bildirmişdir. Onun dediyinə görə, seçkilər "zorakılıq şəraitində keçirilmişdir". Saakaşvili ölkə sakinlərini kütləvi etiraz aksiyalarına çağırmışdır.

Seçkiləri 48 mindən çox yerli və 1300-dən çox beynəlxalq müşahidəçi izləmişdir.

Xatırladaq ki, 25 namizədin iştirak etdiyi birinci turda Zurabişvili 38,64 faiz səs, Vaşadze 37,74 faiz səs toplamışdılar. Hər iki namizəd müxtəlif vaxtlarda Gürcüstanın xarici işlər naziri vəzifəsini tutmuşdur.

### Ukraynada hərbi vəziyyət haqqında qanun qüvvəyə mindi

Dünən Ukraynanın 10 regionunda hərbi vəziyyətin tətbiqi haqqında qanun "Uryadovı kuryer" hökumət qəzetində dərc edilmişdir. Beləliklə, qanun rəsmən qüvvəyə minmişdir.

Sənədin mətnində qeyd olunur ki, tədbir 30 gün müddətinə Vinnitsa, Luqansk, Nikolayev, Sumı, Odessa, Xarkov, Çerniqov, Donetsk, Zaporojye və Xerson vilayətlərində, habelə Azov-Kerç hövzəsinin daxili sularında tətbiq edilir. Hərbi vəziyyət şəraitində səfərbərliyi Ukrayna Prezidenti elan edir.

Yeni rejim vətəndaşların konstitusion hüquqlarının və azadlıqlarının, o cümlədən seçkilərdə iştirak, fikir və söz azadlığının müvəqqəti olaraq məhdudlaşdırılmasını nəzərdə tutur. Gələn ayın axırlarında ölkədə prezident seçkiləri kampaniyası start götürəcək.

### Rusiya QİÇS-in yayılması tempinə görə Avropa lideridir




Dünya Səhiyyə Təşkilatı (DST) və Xəstəliklərin Profikatikası və Nəzarəti üzrə Avropa Mərkəzinin apardığı tədqiqata əsasən, Rusiya qazanılmış immun çatışmazlığı sindromunun (QİÇS) yayılması tempinə görə Avropa ölkələri arasında liderdir. Ötən il ölkədə 100 min nəfərə 71,1 yeni yoluxma halı üzə çıxmışdır. İkinci yerdə Ukraynadır. Bu ölkədə hər 100 min əhaliyə 37 yoluxma halı qeydə alınmışdır. Sonrakı yerləri Belarus (26,1) və Moldova (20,6) tutur.

Ən kiçik göstəricilər Bosniya və Herseqovina (0,3), Slovakiya (1,3) və Sloveniyadadır (1,9).

2017-ci ildə Avropa ölkələrində QİÇS-ə 159 min yeni yoluxma halı qeydə alınmışdır. Onlardan 130 mini Şərqi Avropanın, 104 mini isə Rusiyanın payına düşür.

### Kabildə terror aktı



Əfqanıstan paytaxtının polis idarəsinin mətbuat katibi Bəsir Mücahid "Anadolu" agentliyinə bildirmişdir ki, Kabilin Dispiçəri rayonunda Britaniyanın G4S təhlükəsizlik şirkətinin alaqapısının yaxınlığında beş terrorçudan biri minalanmış avtomobili partlatmışdır. Bundan sonra dörd terrorçu binaya soxulmuşdur. Mühafizəçilərlə terrorçular arasında atışma on saata yaxın davam etmişdir. Nəticədə cinayətkarlar məhv edilmişdir. Ölənlər arasında əcnəbi vətəndaşlar da var. Hücuma görə məsuliyyəti "Taliban" hərəkatı üzərinə götürmüşdür.

Bu arada Əfqanıstanın şimalında yerləşən Sari Pul əyalətindən Məzari-Şərif şəhərinə gedən iki mikroavtobusun 25 sərnişini oğurlanmışdır. Bu barədə Bəlx əyaləti qubernatorunun mətbuat katibi Munir Əhməd Fərhad məlumat vermişdir. Onun dediyinə görə, oğurlananlar mülki şəxslərdir və hazırda onların azad edilməsi üçün tədbirlər görülür.

### Bir milyon uşaq qış aylarını küçədə keçirəcək



BMT-nin Uşaq Fondu (UNİCEF) xəbərdarlıq etmişdir ki, yaşamağa yerləri olmadığı üçün Şimali Afrika və Yaxın Şərqdə bir milyona yaxın uşaq qış aylarını küçədə keçirəcək. Bu barədə TRT telekanalı xəbər verir. UNİCEF-in məlumatına görə, adamların qaçqınlara çevrilməsi və işsiz qalmasına gətirib çıxaran münaqişələr nəticəsində ən çox əziyyət çəkən uşaqlardır.

UNİCEF-in Şimali Afrika və Yaxın Şərqdəki nümayəndəsi Gert Kappelere bildirmişdir ki, fond uşaqları qış şəraitində yaşayış yeri ilə təmin etməyə çalışarkən ciddi maliyyə problemləri ilə üzləşir və hazırda bunun üçün təcili olaraq 33 milyon dollar lazımdır.

UNİCEF nümayəndəsinin dediyinə görə, 1 milyona yaxın uşaq yağışlı, soyuq qış aylarını çadırlarda və müvəqqəti sığınacaqlarda keçirir. Soyuqlama nəticəsində sonradan təhlükəli xəstəliklər baş qaldırır. Bu uşaqlar aclıqdan əziyyət çəkir, onlara praktiki olaraq tibbi yardım göstərilmir. Fondun bəyanatında qeyd olunur ki, bu qış UNİCEF Suriya, İraq, İordaniya, Livan, Türkiyə və Misirdə 1,3 milyon uşağa yardım etməyi planlaşdırır.

## "Bakı Metropoliteni" QSC "Bakmil" stansiyasının vestibülünün damında "A", "B" və "V" oxları arasında ferma tipli metal örtüyün qurulması və Texnoloji Korpusda və 20 stansiyada SCADA proqram təminatı əsasında 220 V dəyişən cərəyan və 24 V sabit cərəyən şəbəkələrinin elektrik parametrlərinin otürülməsi işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Zakir Hacıyev, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "Bakmil" stansiyasının vestibülünün damında "A", "B" və "V" oxları arasında ferma tipli metal örtüyün qurulması işlərin satın alınması**

**LOT-2. Texnoloji Korpusda və 20 stansiyada SCADA proqram təminatı əsasında 220 V dəyişən cərəyan və 24 V sabit cərəyən şəbəkələrinin elektrik parametrlərinin otürülməsi işlərinin satın alınması**

**İştirak haqqı LOT-1 - 150 manat**
**LOT-2 - 150 manat**
**Hesabın adı: "BAKI METROPOLİTENİ" QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **07 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **15 yanvar 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **16 yanvar 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşlarının tibbi sığortalanması məqsədilə elan edilmiş açıq tender uzrə Tender komissiyasının 12 noyabr 2018-ci il tarixli qərarı ilə "AXA MBASK" SŞ ASC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq sığorta müqaviləsi bağlanmışdır.

***Müsabiqə komissiyası***

# "Barama FinTech Hackathon" yarışmasının nəticələri açıqlanıb



"Azercell Telekom" MMC-nin Barama İnnovasiya Sahibkarlıq Mərkəzinin təşkilatçılığı və PAŞA Bankın dəstəyi ilə proqramçıların sevimli müsabiqəsi "Barama FinTech Hackathon" yarışmasının qalibləri bəlli olub. Bu, Barama İnnovasiya və Sahibkarlıq mərkəzi tərəfindən təşkil olunan sayca 6-cı Hackathon müsabiqəsi olub. Mütəxəssislər tərəfindən aparılan texniki dəyərləndirmənin ardından 28 noyabr tarixində baş tutan təqdimat və mükafatlandırma mərasimində iştirakçı komandalar yaratdıqları həlləri münsiflər heyəti qarşısında təqdim ediblər. Beləliklə, müsabiqədə "AXON" komandası (Ziya Bayramov, Tural Gülməmmədov, Rüfət Məmmədli) Mirza Aİ çat bot sistemini yaradaraq I yerə layiq görülüb. Qalib komanda "Azercell"in Barama Mərkəzindən 2000 AZN dəyərində hədiyyə kuponu əldə edib. Müsabiqənin "KLMZ" adlı komandası (Seyid-Kənan Bağırov, Rüfət Abdullazadə, Məhəmməd Rüstəmzadə) müştəri istəklərini və bank təkliflərini birləşdirən platforması ilə II yerə çıxıb, mükafatı 900 AZN təşkil edib, "404" adlı komandası (Gunay Həsənova, Vüqar Suleymanov, Rəşid Şirəlizadə) isə tez və asan yolla depozit yaradan tətbiqetmə layihəsi ilə III yerin sahibi elan edilib və 500 AZN dəyərində hədiyyə ilə mükafatlandırılıb.

***"Azərbaycan"***

Təkrar

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

## "Sumqayıt Kimya Sənaye Parkı" MMC Sumqayıt Kimya Sənaye Parkının 167.66 hektar, 127.96 hektar və Pirallahı Sənaye Parkının 20 hektar ərazisində əmlakın mühafizəsi üzrə iş və xidmətlərin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Sumqayıt Kimya Sənaye Parkının 167.66 hektar, 127.96 hektar və Pirallahı Sənaye Parkının 20 hektar ərazisində əmlakın mühafizəsi üzrə iş və xidmətlərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65).

**İştirak haqqı: 500 manat**
**H/H: AZ65PAHA38090AZNHC0190006581**
**VÖEN: 2902478331**
**Bank: "PAŞA Bank" ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**SWIFT: PAHAAZ22**
**M/H: AZ82NABZ01350100000000071944**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra **30** bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18 dekabr 2018-ci** il tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **26 dekabr 2018-ci** il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **27 dekabr 2018-ci** il saat 12:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisində açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

## *2019-cu il üçün "Bakı Metropoliteni" QSC-nin tunellərində korroziya əleyhinə mühafizə üzlüklərinin çəkilməsi zamanı texniki xidmət göstərilməsinin satın alınması üzrə*

### açıq tender elan edir

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** 2019-cu il üçün "Bakı Metropoliteni" QSC-nin tunellərində korroziya əleyhinə mühafizə üzlüklərinin çəkilməsi zamanı texniki xidmət göstərilməsinin satın alınması

**İştirak haqqı - 300 manat**

| | |
|---|---|
| Hesabın adı: | "BAKI METROPOLİTENİ" QSC |
| Hesab: | AZ98AZRT38050019440010268002 |
| VÖEN: | 1402871431 |
| Bank: | AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı) |
| Kodu: | 501361 |
| VÖEN: | 9900006111 |
| M/H: | AZ02NABZ01350100000000022944 |
| SWIFT: | AZRTAZ22 |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *metropoliten sahəsində iş təcrübəsi.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 dekabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **27 dekabr 2018-ci il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **28 dekabr 2018-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Bu gün Bakıda sulu qar yağması ehtimalı var

Ölkə ərazisində noyabrın 30-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı gözlənilir. Axşam isə şəhərətrafı ərazilərdə yağışın arabir sulu qarla yağması ehtimalı var. Güclü şimal-qərb küləyi noyabrın 29-dan 30-na keçən gecə arabir şiddətlənəcək, gündüz mülayimləşəcək. Havanın temperaturu Abşeron yarımadasında və Bakıda gecə və gündüz 4-7° isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunundan 777 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış, sulu qar, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Gecə və səhər arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-7°, gündüz 8-11° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 2-5° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında arabir yağış, bəzi yerlərdə sulu qar, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Mülayim qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, dağlıq ərazilərdə 6-8° şaxta, gündüz 5-10° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında havanın arabir yağıntılı olacağı, qar yağacağı, duman olacağı gözlənilir. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 2-5° isti olacağı proqnozlaşdırılır.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-6°, gündüz 6-9° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış, sulu qar, qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir. Gecə və səhər duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-8°, dağlarda gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 2°-dək isti olacaq.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, sulu qara keçəcəyi ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-7° isti, gündüz 8-11° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv və güclü olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-7°, gündüz 8-10° isti, dağlarda gecə 0-3°, gündüz 4-6° isti olacağı ehtimalı var.

## A L L A H R Ə H M Ə T E L Ə S İ N !

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, İqbal Məmmədov, Novruzəli Aslanov, Hüseynbala Mirələmov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsindən Valeh Ələsgərov, Kamran Nəbizadə, Mirkazım Kazımov, Rövnəq Abdullayev, Mirzəcan Xəlilov, Mixail Zabelin, əməkdaşlar Şamil Hüseynov, Süreyya Abdullayeva və Adil Rzayev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli və komitənin üzvləri Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatları Hadi Rəcəbli və Hüseynbala Mirələmov Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR ZEYNAL OĞLU CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin hakimi Ələsgər Əliyevə qardaşı

**HƏSƏNALI ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ələsgər Tağıyev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Ələsgər Əliyevə qardaşı

**HƏSƏNALININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin sədri İslam Əliyev və məhkəmənin kollektivi Ali Məhkəmənin hakimi Ələsgər Əliyevə qardaşı

**HƏSƏNALININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərov və məhkəmənin kollektivi Ali Məhkəmənin hakimi Ələsgər Əliyevə qardaşı

**HƏSƏNALININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyi və kollektivi Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova ailəsi ilə birlikdə Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIM QAFAROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Adil Məmmədov və Fuad Məmmədov Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8399
Sifariş 3541